# QİYAMƏTDƏ 3 DƏQİQƏ

Hərəm müdafiəçisinin ölümə yaxın bir təcrübəsi



ŞƏHİD HADİ MƏDƏNİYYƏT QRUPU

Şəhid Hadi Mədəniyyət Qrupu



# QİYAMƏTDƏ 3 DƏQİQƏ

Hərəm müdafiəçisinin
ölümə yaxın bir təcrübəsi

*Bir ömür boyu yalnız*
*İmam Zamanın (ə.c) yolunda çalışan,və nəhayət,*
*Allahın ən xəbis düşmənlərinin əli ilə şəhadətə*
*çatan şəhid mücahid , İslam və vilayət əsgəri*
*Şəhid Qasim Süleymaninin uca ruhuna ithaf olunur.*

Hərəm müdafiəçisi olan imanlı dostlardan biri öz yuxusunu bizə göndərmişdir.Hərçənd biz yuxuları höccət hesab etmirik.
Amma bu yuxu bizi təsirləndirdi.
"Hacı Qasimin şəhadətindən 40 gün keçmişdi. Böyük və insanla dolu bir zalda idik. Bir natiq səhnəyə çıxmaq istəyirdi. Təəccüblə gördüm ki, natiq elə Hacı Qasimin özü idi. Birdən yadıma düşdü ki, Hacı şəhid olub.
İrəliləyib soruşdum: "Siz burada nə edirsiniz?"
Dedim: "Doğrudan, necə şəhid oldunuz?"
Cavab verdi: "Çox rahat.... Mənə bir ətirli gül iylətdilər mən özümü Əmirəlmömininin (ə) hüzurunda gördüm.
Soruşdum: "Biz də şəhid ola bilərikmi?
Dedi: "Bəli, bu öz əlinizdədir."
Dedim: "Doğrudan, o tərəfdə hesab-kitablar necədir?"
Tələsirdi, dedi: "Qiyamətdə üç dəqiqə kitabını oxumusan?
Elə o cürdür..."

# GİRİŞ

Şəhid İbrahim Hadi Mədəniyyət Qrupu dostları illərdir ki, şəhidlər mövzusunda fəaliyyət göstərirlər. Bu qrup tərəfindən çap olunan və müxtəlif mövzulara malik olan şəhidlərə həsr edilmiş onlarla kitab, xalq tərəfindən böyük maraqla qarşılanmışdır.

1396-cı ildə İsfahana bir səfərimiz oldu. Orada Sepahın komandirlərindən olan əziz bir dostumuzdan bir həmkarı ilə bağlı qəribə bir hadisə eşitdim. O, dedi: "Həmkarımız müharibə veteranı və hərəmin müdafiəçilərindəndir. O, cərrahiyyə əməliyyatı zamanı üç dəqiqəlik dünyasını dəyişir və sonra əməliyyat otağında yaradılan şokla həyata qayıdır. Lakin bu qısa müddətdə onun adi insanların anlamasının çətin olduğu şeylər gördüyü bildirilir.

Həmkarımız hadisəni bir neçə yaxın dostuna danışmışdı və bunun yayılmasını çox da istəmirdi.

Bundan əlavə, bu hadisədən sonra  əxlaq və davranışları tamamilə dəyişmişdi.

Bu şəxslə tanış olmağa çox istəyirdim.

Onun telefon nömrəsini tapıb dəfələrlə zəng etdim, nəhayət telefona cavab verdi. Bir neçə müsahibə, bir neçə səfər və görüşün nəticəsi sizin qarşınızdakı kitab oldu.

Əlbəttə ,onun müsahibələrini nəşr etdirmək üçün razılığını almağımız bizə uzun müddətə  başa gəldi.Həmçinin, o, kitabda öz adının və şəxsiyyətinin qeyd olunmaması şərtini qoydu. Bu səbəbdən, biz onun kimliyi barədə məlumat verməkdən çəkinirik. Həmçinin, razı qalmadığı bəzi məqamları kitabdan çıxardıq.

Əvvəlcə bu kitab qrup üzvlərinə çox təsir etdi. Ümid edirik ki, bu təcrübə başqalarının mənəviyyatının güclənməsində də faydalı olacaq.

# ZAMAN GETDIKCƏ

"Mən uşaqlığımı məsciddə,moizə məclislərində keçirmişəm. Dindar bir ailədə böyümüş və şəhərimizin bir məscidindəki Bəsic qərargahının üzvi idim. Məktəb illəri və Müqəddəs Müdafiənin son illərində bizim gecə-gündüzümüz məscidlərdə keçirdi. Müqəddəs Müdafiənin son illərində dua və göz yaşları ilə Allaha yalvararaq cəbhəyə getmək arzum gerçəkləşdi və bir müddət İslam döyüşçüləri arasında olmaq və o mənəvi atmosferi yaşamaq mənə nəsib oldu.

O dövrdə mən İsfahan əyalətinin kiçik bir şəhərində yaşayırdım.
Cəbhə həyatı çox uzun çəkmədi və şəhidlik arzusu ürəyimdə qaldı.
Amma o gündən bəri mənəviyyatımı düzəltməyə çalışırdım.
Bilirdim ki, şəhidlər kiçik cihaddan əvvəl böyük cihadda (mənəvi mübarizədə) uğur qazanmışlar.
Bu səbəbdən yeniyetməlik dövrümün əsas məqsədi günah etməmək idi. Məscidə gedəndə başımı aşağı salardım ki, naməhrəmə gözüm sataşmasın.
Bir gecə Allahla tək qaldım və çox ağladım. O zamanlar hələ 17 yaşım vardı. Allaha yalvarırdım ki, bu dünyanın çirkinliklərinə bulaşmayım, günaha düşməyim. “Mən bu dünyanın bataqlığına bulaşmaq istəmirəm, gələcəyimi korlamaqdan qorxuram” — deyirdim.Hətta Əzrail(ə) (ölüm mələyinə) yalvarırdım ki, tez gəlsin və məni bu dünyadan aparsın!

Bir neçə gün sonra məscid yoldaşlarımızla birlikdə məhəllə sakinləri və şəhid ailələri üçün bir Məşhəd karvanı təşkil etmək qərarına gəldik. Böyük çətinliklərlə bu səfərin işlərini tamamladım və qərara alındı ki, karvanımız cümə axşamı günortadan əvvəl yola düşsün. Çərşənbə günü axşam məsciddən evə yorğun halda qayıtdım. Yatmazdan əvvəl yenidən Əzrail haqqında düşünməyə başladım və tez ölməyim üçün dua etdim.
Təbii ki, o zaman yaşım az olduğu üçün düz iş gördüyümü düşünürdüm. Amma bilmirdim ki, Əhli-beyt (ə)heç vaxt belə bir istəkdə olmayıblar. Onlar dünyanı yüksək məqamlara çatmaq üçün bir körpü hesab edirdilər.Yorğun idim və tez yuxuya getdim. Gecənin yarısı oyandım, gecə namazı qılıb yenidən yatdım.
Yuxuda gözəl bir gəncin başımın üstündə dayandığını gördüm. Onun heybəti və gözəlliyindən qalxıb ədəblə salam verdim.
O şəxs dedi: "Məndən nə istəyirsən? Niyə bu qədər ölüm arzulayırsan? Hələ sənin növbən çatmayıb."
Anladım ki, bu Əzrail(ə) mələyidir. Qorxdum, lakin öz-özümə düşündüm: Əgər o bu qədər gözəl və sevimlidirsə, bəs insanlar ondan niyə bu qədər qorxurlar?!Getmək istəyəndə qarşısına keçdim və yalvararaq məni də aparmalarını istədim.
Amma mənim yalvarışlarım faydasız oldu. Əzrailin(ə) işarəsiylə öz yerimə geri döndüm və sanki bərk yerə düşdüm!
Yuxuda saatıma baxdım. Günorta saat 12 idi. Hava da işıqlı idi! Yerə düşdüm və sol tərəfim şiddətlə ağrıdı.

Elə bu vaxt yuxudan oyandım. Gecə yarısı idi. Durmaq istəyirdim, amma bədənimin sol tərəfi güclü ağrıyırdı! Yuxum tamamilə qaçmışdı.
Bu nə yuxu idi? Həqiqətən mən Əzrail(ə) gördüm?! O nə qədər də gözəl idi!

Səhəri gün erkəndən Məşhəd səfəri ilə bağlı işləri görmək üçün yola düşdüm.
Hamı avtobuslara minmişdi, amma dostlarımından bəziləri hələ də Sepahdan (İranın İslam İnqilabı Keşikçiləri Korpusu) səfər icazəsini almamışdılar. Təcili olaraq Bəsic qərargahının motosikletini götürüb Sepahın qərargahına getdim.
Geri qayıdarkən, yolun kəsişməsində bir "Peykan" markalı maşının sürücüsü qırmızı işığa fikir vermədən qarşıma çıxdı və sol tərəfimdən mənə çırpıldı.
Qəza o qədər şiddətli idi ki, əvvəlcə avtomobilin kapotuna, sonra damına, daha sonra isə arxa tərəfinə dəyərək yerə çırpıldım.
Bədənimin sol tərəfi dəhşətli dərəcədə ağrıyırdı. Sürücü maşından düşdü və qorxudan əsirdi. Düşünürdü ki, mən artıq ölmüşəm.
Bir anlıq düşündüm: "Deməli, Əzrail(ə) həqiqətən də gəldi!". Qəzanın şiddətindən ruhumun bədənimi tərk etdiyini zənn etdim. Saatıma baxdım: düz saat 12 idi.
Sol tərəfim çox ağrıyırdı!
Bir anda gecə gördüyüm yuxunu xatırladım. Öz-özümə dedim: "Bu, yuxumun təbiri idi. Demək, mən sağ qalacağam. Axı ölüm mələyi demişdi ki, hələ vaxtım çatmayıb. Ziyarətçilər mənim yolumu gözləyir. Gecikməməliyəm."
Ayağa qalxdım. Sürücü təəccüblə soruşdu:
— "Siz sağsınız?!"
Dedim: "Bəli."
Motosikleti qaldırdım və onu işə saldım. Düzdür, çox ağrım vardı, amma buna baxmayaraq, birbaşa məscidə doğru yollandım.
Sürücü isə arxamca qışqırdı:
— "Ay kişi, əminsən ki, salamatsan?"
Sonra o da maşını ilə arxamca düşdü, çünki düşünürdü ki, hər an yıxıla bilərəm.Karvan yola düşdü. Mən də çox ağrı çəkməyimə baxmayaraq, onlara qoşuldum. Bədənimdəki ağrılar və əzilmələr təxminən iki həftə davam etdi.
Bu hadisədən sonra başa düşdüm ki, insan bu dünyada Allah rizası üçün yaşamalıdır. Ölümü arzulamağa dəyməz. Əgər vaxt çatıbsa, onsuz da gəlib səni aparacaqlar. Amma mən daima Allaha dua edirdim ki, şəhid olum.

O günlərdə çox çalışırdım ki, bəzi dostlarım kimi mən də Sepahın (İslam İnqilabı Keşikçiləri Korpusu) sıralarına daxil olum. Əqidəm belə idi ki, Sepahın yaşıl libası, qeybətdə olan İmamın  döyüşçülərinin geyimidir.

Nəhayət, davamlı səy və axtarışlarımdan sonra bu arzum gerçəkləşdi. 70-ci illərin əvvəllərində (hicri-şəmsi ilə) Sepahın təlim kurslarını tamamlayaraq bu quruma daxil oldum.

Qeyd edim ki, həmkarlarım və dostlarım məni çox zarafatcıl və eyni zamanda işinə ciddi yanaşan bir insan kimi tanıyırdılar. İşimi bacardığım qədər düzgün və məsuliyyətlə yerinə yetirirdim, amma zarafat, gülmək, əyləncə və dostlarla atmacalar heç vaxt əskik olmazdı.

Dostlarım deyirdilər: “Səninlə oturub-durmaq adamı heç vaxt yormur.”

Hərbi düşərgələrdə, taktiki təlimlərdə ,əməliyyatlarda hər zaman bizim çadırdan gülüş səsləri eşidilirdi.

Sonralar ailə həyatı qurdum və gündəlik həyatın axarına düşdüm. Mənim həyatım da, əksər insanlar kimi, getdikcə adi və “dünyəvi bir axın” aldı. Gündüz işdə olur, axşamlar ailəmlə birlikdə vaxt keçirir, bəzən isə məscidə və ya məhəllə heyətinə qatılırdım.

Sepahda fəaliyyətim illərlə davam etdi. Bir gün, bir hərbi əməliyyat üçün hazırlaşma əmrini aldıq.

Təqribən 2011 ci il idi.ABŞ-a bağlı silahlı muzdlu və terrorçu qruplar İranın şimal-qərbində, Piranşəhr yaxınlığında dinc insanları öldürür, bölgəni qan gölünə çevirirdilər. Onlar bölgənin strateji yüksəkliklərini ələ keçirib, keçən maşınlara və hərbi qüvvələrə hücum edirdilər.

Sepah və digər hərbi birləşmələr bu təxribatların qarşısını almaq üçün hərəkətə keçəndə isə bu terror qrupları sərhədi keçərək Şimali İraqa qaçırdılar.

Eyni ilin avqust–sentyabr aylarında, Sepahın topçu bölməsindən bir neçəsi şəhid oldu.Bu hücumdan sonra xüsusi təyinatlı qüvvələr bölgəyə göndərildi. Böyük bir əməliyyat hazırlandı və həmin strateji yüksəkliklərin tam təmizlənməsi hədəf alındı.

# Əməliyyatda yaralanma

Əməliyyat çox uğurlu oldu. Bir neçə Sepah döyüşçüsünün şəhidliyi bahasına olsa da, strateji yüksəkliklər və sərhəd bölgəsi terrorçu "Pəjak" qrupundan tamamilə təmizləndi. Mən də bu əməliyyatda iştirak edirdim.

Əsl döyüş nə deməkdir – onu orada dərindən hiss etdim. Bu, çox xüsusi bir duyğu idi.

Mən də digər dostlarım kimi şəhid olmağı arzulayırdım. Amma içimdə bir səs deyirdi: "Sən və şəhidlik? Artıq o gənclik ruhiyyəsi, o həvəs qalmayıb !"

Əməliyyat zamanı toz, torpaq və çirkli hava səbəbindən gözlərimdə şiddətli qıcıqlanma başladı. Gözlərim sanki alışıb yanırdı. Bu, adi bir yanma deyildi.Səhra tibbi heyətinin həkimi gözümə damcı tökdü və dedi:

"Bir saata keçər."

Amma vaxt keçdi, amma ağrı və yanma getdikcə daha çox artdı.

Əməliyyat başa çatdı, bölgə təmizləndi və biz bazalarımıza qayıtdıq. Amma mənim sol gözüm hələ də sakitləşmirdi. Həmin vaxtdan üç il keçdi və bu müddətdə  dəfələrlə həkimə getdim, amma bir nəticə olmadı.

Nəhayət bir səhər, hiss etdim ki, sol gözüm sanki yuvasından çıxıb. Aynanın qarşısında duranda dəhşətli bir mənzərə ilə qarşılaşdım — gözüm yerindən çıxmışdı!Bu vəziyyət çox qorxunc idi. Üstəlik, başımda və göz ətrafımda şiddətli ağrılar vardı.

Həmin gün dərhal xəstəxanaya getdim. Həkimlərə yalvarırdım: "Zəhmət olmasa məni əməliyyat edin! Artıq dözə bilmirəm!"

Müayinə, rentgen və testlərdən sonra həkim heyəti (bir beyin cərrahı, bir oftalmoloq və bir neçə digər mütəxəssis) qərara gəldi ki:

Gözümün arxasında böyük bir törəmə – şiş yaranıb. Bu törəmə gözə təzyiq edərək onun irəli çıxmasına səbəb olub. Daha dəhşətlisi isə bu şişin beyinə yapışması idi.

Dedilər ki, şişi çıxarmaq çox risklidir:

— Ya gözünü itirəcəksən,

— Ya da beyninəə zərər dəyəcək və nəticədə ölüm riski var.

Həkimlərin əksəriyyəti bu əməliyyata razı deyildi. Amma mən çox israr etdim.

Nəhayət, Tehrandan bir beyin cərrahı gəldi və ikinci bir komissiya quruldu. Qərara alındı ki, qaşımın üstündən kəsik açıb, sümüyü çıxararaq göz arxasına müdaxilə edilsin.
Bu ağır əməliyyat 1394-cü ilin ordibeheşt ayında (təqribən 2015-ci ilin aprelində) İsfahanın bir xəstəxanasında həyata keçirildi və 6 saat davam etdi.
Əməliyyatdan əvvəl həkimlər bir daha mənə və ailəmə dedilər:
— "Əməliyyat çox risklidir. Korluq və ya ölüm ehtimalı yüksəkdir. Əməliyyat yalnız xəstənin israrı ilə həyata keçirilir."Mən isə artıq hamı ilə vidalaşmışdım, hamilə olan həyat yoldaşımla,uşaqlarımla,dostlarımla və qohumlarımla halallaşdım.
Özümü Allaha təslim etdim və əməliyyat otağına girdim. Dərin bir hiss içindəydim, çünki hiss edirdim ki, bura mənim son dayanacağım ola bilər...

# Əməliyyatın sonu

Əməliyyat uzun çəkdi. Göz arxasındakı törəmənin çıxarılması çox çətin oldu. Həkimlər əllərindən gələni etdilər. Lakin işin son mərhələsində birdən hər şey dəyişdi.
Birdən hiss etdim ki, çox yüngülləşmişəm. Əvvəlki ağrılarım yox olmuşdu.Bədənimdən sanki bir yük götürülmüşdü.
Düşündüm:
— "Nə yaxşı, nəhayət bu göz və baş ağrılarından xilas oldum. Deməк ki, əməliyyat uğurla keçdi."
Amma qəribə olan o idi ki, hələ də əməliyyat masasında olsam da, ayağa qalxdım və oturdum! Halbuki, başımda bir sürü cihaz və tellər vardı...
O an, uşaqlıqdan bu günə qədər olan bütün həyatım bir film kimi gözlərimin önündən keçdi – o qədər aydın və dəqiq idi ki!
Özümə baxdım və saflıq, rahatlıq, sevinclə dolu bir hal hiss etdim. Ruhum sanki nurla dolmuşdu.
Sonra sağ tərəfimdə çox gözəl və nurlu libas geyinmiş bir gənc gördüm.Onun nuraniyyəti və gözəlliyi tərifəgəlməz idi. Niyə bilmirəm, onu çox sevirdim.Onun gülümsəyən çöhrəsinə baxa-baxa düşündüm:
— "Mən bu gənci haradan tanıyıram? Bu sima niyə mənə bu qədər tanış gəlir?"
Sol tərəfimə baxdım. Əmim, bibim oğlu və Seyid Ağa – yəni babam orada dayanmışdılar. Hamısı artıq dünyadan getmişdi.Onları illər sonra görmək məni çox sevindirdi...
Gözəl simalı o gəncə bir daha baxdım. Bir anda xatırladım – 25 il əvvəl, Məşhəd səfərindən əvvəl yuxumda gördüyüm şəxs... o gənc ölüm mələyi - Əzrail(ə)idi!
Ədəblə salam verdim. O, gülümsəyərək cavab verdi və dedi:
— "Gedək?"
Təəccüblə soruşdum:
— "Hara?"
Eyni anda baxışlarımı otağa tərəf çevirdim. Əməliyyatı aparan cərrah maskasını çıxarıb həkim heyətinə dedi:
— "Artıq xeyri yoxdur. Xəstəni itirdik..."
Sonra dedi:
— "Siz əlinizdən gələni etdiniz.Amma xəstə buna tab gətirmədi."
Hər şey durmuşdu. Cihazlar, monitorlar — hamısı.

Ən maraqlısı isə o idi ki, həkimin arxasında dayansam da, onun nə düşündüyünü oxuya bilirdim. Mən orada olanların beyinlərindən keçənləri başa düşürdüm!
Eyni anda, əməliyyat otağının arxasında olan qardaşımı gördüm. Əlində təsbeh tutmuşdu və zikr edirdi. Onun düşündüklərini də eşidirdim:
“Allah eləsin, qardaşım sağ qalsın. İki körpə övladı var, üçüncüsü də yoldadır. O ölsə, bu uşaqlara kim baxacaq?”
Sonra xəstəxananın başqa otağında bir qazinin mənim üçün dua etdiyini gördüm.Əməliyyatdan əvvəl onunla halallaşmışdım. O dua edirdi:
“İlahi, əgər birimizin canını alacaqsansa, mənimkini al. Onun ailəsi var, mənimsə yoxdur.”
O an, bəsirətim açılmışdı.İnsanların niyyətlərini, iç dünyalarını görürdüm. Hər kəsin içini anlayırdım.Yenə də o nurani gənc soruşdu:
— “Gedək?”
Mən artıq başa düşmüşdüm ki, bu, ölümdür.Ağrılardan xilas olmuşdum, ruhum yüngülləşmişdi. Hər şey sakit və gözəl idi.
Amma dedim:
— “Yox...”
Bibim oğlu şəhid idi. Onu göstərərək dedim:
— “Mən şəhid olmaq istəyirdim! Mənim illərlə arzum bu idi. Bəs indi necə – elə bu şəkildə gedim”
Amma sanki qərar artıq verilmişdi. Mənim sözüm keçmirdi...
Həmin anda iki nurani gənc gəldi. Onlar məni sağ və sol tərəfdən tutdular və dedilər:
“Gedək?”
Artıq nəfsimə hakim deyildim. O iki nurani gənclə birlikdə hərəkət etməyə başladıq.
Bir an sonra özümü bir səhrada gördüm.
Vaxt orada tamamilə fərqli idi. Burada bir anda yüzlərlə hadisəni dərk edə bilir, yüzlərlə insanı görə bilirdim!. Tam olaraq hiss edirdim ki, ölüm vaxtım artıq çatıb. Amma içimdə qəribə bir rahatlıq var idi.

Ağrılar yox olmuş, həm əmim, həm də bibim oğlu yanımda idilər.. Hər şey çox gözəl idi.Həmişə eşitmişdim ki, insanla birlikdə iki mələk olur — indi onları gözlərimlə görürdüm.Çox gözəl və nurani idilər. İnsan istəyərdi ki, daim onlarla birlikdə olsun.
Səhrada birlikdə irəliləyirdik. Birdən qarşımızda bir masa və onun arxasında oturmuş bir şəxs göründü.Yavaş-yavaş o masaya yaxınlaşdıq.
Ətrafıma baxdım. Sol tərəfimdə, uzaqlarda yanğın, od və alov vardı. Elə uzaqda olsa da, istisini hiss edirdim.Sağ tərəfdə isə böyük və gözəl bir bağ, yaşıllıq görünürdü. Oradan sərin bir meh əsirdi.Masada oturan şəxsə ədəblə salam verdim. O da cavab verdi.Ətrafımdakı iki mələk heç bir reaksiya vermirdi.
Mən, masadakı o adam və iki mələkdən başqa heç kim yox idi.Masadakı şəxs böyük və qalın bir kitabı çıxarıb önümə qoydu.

Allahın Peyğəmbəri (s): "Sizdən haqq-hesab soruşulmamış nəfsinizdən haqq-hesab çəkin, sizləri (əməllərinizi) ölçməmişdən əvvəl öz nəfsinizi tərəziyə qoyun və o böyük haqq-hesab gününə hazırlaşın".

Biharul-Ənvar, c 70, səh.73, hədis 26

İmam Sadiq (ə): «Qiyamət  günündə insanın əməl dəftəri ona verilər və deyilər: "Onu oxu.» (Rəvayətçi deyir) Ərz etdim: Həmin məktubda olanları bilirsinizmi? Həzrət buyurdu: «Heç bir baxışı, heç bir deyilməmiş sözü, atdığı heç bir addımı və gördüyü heç bir iş olmaz ki, həmin məktubda yazılmamış olsun. O, həmin əməllərini elə yada salar ki, elə bil indicə görmüşdür. Buna görə də, deyərlər: «Vay bizim halımıza! Bu necə yazıdır ki,...»

Mizanul-hikmət ,cild 2, səh 215

# Hesabat

Masadakı gənc o qalın kitaba işarə etdi. Mənim təəccübümü görüncə dedi:
"Bu, sənin kitabındır, oxu.
Bu gün hesab üçün onu özünə göstərmək kifayətdir."
Bu cümlə mənə çox tanış gəldi. Qurani-Kərimin İsra surəsinin 14 cu ayəsində buyurulur:
«Öz (qəlb və bədəninin əməl) kitabını oxu, bu gün sən özün özünün (əməllərinin) hesabını aparmaq üçün kifayətsən.»
Ətrafıma baxdım. Bir az duruxdum və kitabı açdım. Birinci səhifənin sol yuxarı küncündə iri hərflərlə yazılmışdı:
"13 il 6 ay 4 gün"
Masadakı gəncdən soruşdum: Bu rəqəm nədir?
Dedi: Bu, sənin həddi-büluğa çatdığın gündür. Sən dəqiq olaraq bu tarixdə həddi-büluğa çatmısan.Düşündüm ki, bu tarix ay təqvimi ilə 15 yaşdan bir il azdır. Amma o gənc mənim fikrimi oxuyub dedi:
"Büluğun əlamətləri yalnız sənin düşündüyün kimi deyil." Mən də qəbul etdim.
Kitabın sağ tərəfində büluğdan öncə etdiyim yaxşı əməllər qeyd olunmuşdu. Məşhəd ziyarəti, vaxtında qılınan namazlar, valideynlərə hörmət və s.
Soruşdum: Bunlar nədir?
Dedi: Bunlar büluğdan əvvəl etdiyin yaxşı əməllərdir. Hamısı sənin üçün qorunub.
Büluğdan sonrakı səhifələrə keçmədən əvvəl masadakı gənc kitabıma ümumi bir baxış saldı və dedi:
"Namazların yaxşıdır və qəbul olunub. Ona görə də indi digər əməllərinə keçək."
Mən çox sevinmişdim. Büluğa çatmamışdan əvvəl namaza başlamışdım. Atam və anamın təşviqi ilə daim məscidə gedirdim. Demək olar ki, sübh namazım qəzaya vermirdim. Əgər bir gün sübh namazım qəzaya gedirdisə, axşama qədər narahat və kefsiz olurdum.Namazın əhəmiyyətini uşaqlıqdan öyrənmişdim və həmişə ona diqqət yetirirdim.

Kitabın ilk səhifəsinə baxdım. Büluğa çatdığım gündən etibarən bütün əməllərim ən xırda detallara qədər yazılmışdı. Hər yaxşı və pis əməl, hər biri qeyd olunmuşdu.O zaman Zəlzələ surəsinin 7 ci ayəsini xatırladım:
"Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eyni ilə təcəssümünü) görəcəkdir".
Hər gün etdiyim əməllərin yanında, həmin hadisələrin kiçik bir görüntüsü də vardı. Bu görüntüyə baxanda, o hadisə sanki telefonun video hissəsində olduğu kimi — film kimi görünürdü. Üstəlik, bu film 3D formatda idi, bütün detalları ilə! Digərləri ilə ünsiyyətdə olduğum zamanlarda, onların fikirlərini belə görmək olurdu. Buna görə heç nəyi inkar etmək mümkün deyildi.
Sadəcə əməllər yox, niyyətlər də qeyd olunmuşdu.
Mələk dedi: "İlk olaraq Allahın sənə vacib etdiyi şey namazdır. Və sənin əməllərin içində Allaha tərəf ilk yüksələn də namazdır. Və Qiyamət günü ilk hesab da namazla başlayacaq."
Bu sözlərdən sonra ağlıma bir hədis gəldi:
"Əgər namaz qəbul olunarsa, digər əməllər də qəbul olunar. Əgər namaz rədd olunarsa..."

İmam Baqir (ə.s) buyurur: Qiyamət günü bəndədən soruşulan ilk əməl namazdır, əgər namaz qəbul olunsa sair əməllər də qəbul olunacaqdır, əks halda sair əməllər ona heç bir fayda verməyəcəkdir.
(Biharul Ənvar, 7/ 267)

Hər şey çox dəqiq yazılmışdı. Etiraz etməyə heç bir əsas yox idi.
Bütün əməllər qeyd olunmuşdu. Heç nə deyə bilmirdim. Amma xoşbəxt idim ki, uşaqlıqdan atamla daim məsciddə və heyətdə olmuşam. Bununla qürur duyurdım və özümü artıq cənnətin ən yüksək mərtəbələrində görürdüm.
Kitabın ilk səhifəsinə baxarkən və yaxşı əməllərimlə qürur duyarkən, birdən gördüm ki, bütün o gözəl əməllər silinir! Səhifə dolu idi, amma indi ağ vərəqə çevrilmişdi!
Qəzəblə masadakı gəncə dedim: "Niyə bunlar silindi? Axı mən bu əməlləri etmişəm!"
Dedi: "Bəli, düz deyirsən. Amma sən həmin gün dostlarından birinin qeybətini etdin. Sənin yaxşı əməllərin onun əməl dəftərinə köçürüldü."
Qışqıraraq dedim: "Niyə? Bütün yaxşı əməllərim?!"
O da birbaşa olmasa da, bir hədisə işarə etdi:
"İmam Sadiq (ə) buyurmuşdur: "Qeybət etmək hər bir müsəlmana haramdır. Alov odunu yandırıb kül etdiyi kimi, qeybət də insanın yaxşı əməllərini yandırıb kül edir."

---

Həzrət Peyğəmbəri-Əkrəm (s.a.s) buyurmuşdur: "Qiyamət günü sizdən birinin əməllərinə baxmaq üçün məhşər səhnəsinə gətirib əməl dəftərini ona verərlər. O, özünün əməl dəftərinə baxanda yerinə yetirmiş olduğu xeyir əməllərdən heç birini orada görməyib deyər: "İlahi, bu mənim əməl dəftərim deyildir. Çünki yerinə yetirdiyim saleh əməllərdən və ibadətlərdən heç biri onda yazılmamışdır." Ona deyilər: "Sənin Allahın səhvə düçar olmaz, heç bir şeyi unutmaz. Bu elə sənin əməl dəftərindir; lakin qeybət etdiyinə görə sənin yaxşı əməllərin pisliyinə danışıb qeybətini etdiyin şəxsin əməllərinə əlavə olunmuşdur."

Növbəti səhifəyə keçdim. O gün də bir çox yaxşı əməllər etmişdim — vaxtında qılınan namaz, məscid, valideyn razılığı və s.
Həmin əməllərin görüntüləri də vardı, amma baxmağa ehtiyac yox idi. Çünki hər biri yadımda idi.
O dövr, Müqəddəs Müdafiə (müharibə dövrü) dövrü idi və çoxumuz imanlı uşaq kimi tanınırdıq. Bir çox yaxşı əməl etmişdim ki, onları unutmuşdum, amma indi hamısını gördüm.
Yenə gördüm ki, bütün yaxşı əməllərim silinmək üzrədir!
Dedim: "Bu dəfə niyə? Mən o gün qeybət etməmişdim ki!"
Gənc dedi: "O gün dindar dostlarından birini məsxərəyə qoymuşdun. Bu çirkin əməl sənin savablarını məhv etdi."
Sonra heç nə demədən mənə Qurandan bir ayəni xatırlatdı .
Zümər surəsinin 65-ci ayəsi:
"(Qiyamət günü) bəzi əməllər (günahlar üzündən) puç olar."
Yaxşı yadıma düşdü ki, hansı hadisəyə işarə edir. Mən çox zarafat edən biri idim. Öz-özümə dedim: "Əgər bu belədirsə, vəziyyətim lap pisdir"
Növbəti səhifəyə keçdim. O gün də bir çox yaxşı əməllərim vardı. Amma bu dəfə yaxşı əməllərim silinmədi! Halbuki, o gün də zarafat etmişdim. Amma həmin zarafatlar sadəcə dostlarla idi, heç kimə təhqir etməmişdim, qeybət etməmişdim, günah etməmişdim. Bu səbəblə o zarafat və gülüşlərim yaxşı əməl kimi qeyd olunmuşdu. Öz-özümə dedim: "Şükür Allaha!"

İmam Əli (ə): «Sizdən əvvəlkilərin gördüklərini görsəydiniz, hər ansüst düşüb, vəhşət içində olar, sözəbaxan və itaətcil olardınız. Ancaq onların gördükləri sizə görünmür və pərdənin götürülməsi də yaxındadır.»
Nəhcül-Bəlagə,xütbə 20

# Həcc savabı

Çox sevindim və növbəti səhifəyə baxdım. Heyrətlə gördüm ki, əməl dəftərimdə Həcc savabı yazılıb!
Masadakı gəncə təəccüblə və gülümsəyərək dedim: “Həcc?! Mən bu yaxınlarda Məkkəyə getmişdim, amma o vaxtlar uşaq idim, Məkkəyə getməmişdim?!”
Dedi: “Həcc savabı yazılıb. Elə əməllər var ki, onların əvəzinə bir neçə həcc savabı yazılır. Məsələn, valideynə şəfqətlə baxmaq və ya imam Rza (ə) ziyarətinə mərifətlə getmək.”
Amma birdən gördüm ki, bir-bir o yaxşı əməllərim də silinmək üzrədir.
Baxdım və gördüm ki, günün sonunda dostlarla bir yerə toplaşmışıq və biri bizdən inciyib.
O anda Zümər surəsinin 65-ci ayəsi yenidən yadıma düşdü:
"Bəzi əməllər insanın yaxşı əməllərini məhv edə bilər."
Yanımdakı iki mələyə dedim: “Bir şey edin! Bu şəkildə bütün yaxşı əməllərim məhv olur!”
Onlar başlarını yavaşca yellədilər, sanki "əlimizdən bir şey gəlmir" demək istədilər. Səhifələri çevirdikcə görürdüm ki, çox zəhmət çəkib etdiyim yaxşı əməllər bir-bir silinirdi...
Çox ağır bir mənəvi təzyiq altındaydım. Az qala ürəyim partlayacaqdı. Bütün mənəvi sərvətimin məhv olmasını gözlərimlə görürdüm. Nə edəcəyimi bilmirdim!
Əvvəllər etdiyim zarafatlar burada ciddi şəkildə qeyd olunmuşdu. Mənim yaxşı əməllərim öz əməl dəftərimdən çıxarılıb başqalarının əməl dəftərinə köçürülürdü!

Həzrət Peyğəmbər (ə):
"Ata-anaya mehriban baxış müqabilində saleh övlada kamil Həcc savabı verilər...Soruşurlar ki, əgər gündə 100 dəfə belə baxsa necə? Həzrət buyurur: Bəli, Allah ən böyük və ən pakdır, hər baxışa savab yazar".
Biharul-ənvar; c. 74; səh. 73

Bir başqa məsələ də vardı: Yaşım artdıqca, camaatla birgə qıldığım namazlardan və heyətdəki iştirakdan aldığım savabların azalırdı!
Masadakı gəncə dedim: “Bu son günlərdə bütün namazlarımı camaatla qıldım, heyətə getdim. Bəs niyə bunlar yazılmayıb?”
Mənə baxdı və dedi: “Yaxşı bax! Yaşın artdıqca, əməllərində riyakarlıq da artıb.Əvvəllər səmimi niyyətlə məscidə və heyətə gedirdin, amma sonralar sadəcə dostlar səni görsün deyə getdirdin.. Əgər doğrudan da Allah üçün olsaydı, niyə dostlarının olmadığı məscidə və heyətə getmirdin?”

Məhəmməd peyğəmbər (s) riya haqda buyurub: “Sizə görə ən çox qorxduğum şey kiçik şirkdir”. Səhabələr soruşdular: “Ya Rəsulullah, kiçik şirk nədir?” Peyğəmbərimiz buyurdu: Riyadır, yəni başqaları görsün deyə ibadət etməkdir.
Allah-Təala qiyamət günü hər kəsin əməlinin qarşılığını verəndə ibadətlərini insanlara göstərmək üçün edənlərə belə deyəcək: “Gedin dünyada ibadətlərinizi göstərdiyiniz, özünüzü bəyəndirməyə çalışdığınız adamların yanına, görək sizə vermək üçün bir şeyləri varmı?”

Qurani -Kərimdə  Kəhf surəsinin 49 cu ayəsində belə buyurulur:
"Və o kitab (hər bir fərdin əməllərinin kitabı əlinə, hər bir ümmətin əməl kitabı gözlərinin önünə və bütün bəşəriyyətin əməllərinin böyük kitabı hamının görə biləcəyi bir yerə) qoyular. Beləliklə günahkarları onda olandan qorxan görərsən. Və onlar deyərlər: «Vay olsun bizə! Bu necə yazıdır ki, heç bir kiçik və böyüyü (bizim zehnimizdən keçirdiklərimizin, qəlbi inanclarımızın və bədənimizin hərəkətlərinin heç birini) yerdə qoymadan, istisnasız hamısını saymışdır!» Onlar (dünyada) etdiklərini (əməllərinin hesabını, əməl zamanı çəkilmiş şəklini, axirət cəzasını, həmin əməllərin öz cism və ruhlarına təsirlərini və onların həmin aləmdəki təcəssümünüü)) hazır görəcəklər. Sənin Rəbbin heç kə zülm etməyəcəkdir".

# Niyyət

Səhifələri çevirirdim. Nə zaman çox dəyərli bir əməl olurdusa, o əməl səhifənin yuxarısında iri hərflərlə yazılmış olurdu.
Bir səhifədə çox böyük hərflərlə belə yazılmışdı:
"Bir kasıb ailəyə yardım"
Əməlin təfərrüatı və videosu da vardı. Amma düzü, nə qədər fikirləşsəm də, xatırlaya bilmirdim ki, mən bu ailəyə  nə vaxt yardım etmişəm?
Onlara yardım etməyi çox istəmişdim, amma maddi imkanım yox idi. Onlar bizim qonşularımız idi və vəziyyətləri yaxşı deyildi. Çox istəyirdim ki, onlara kömək edim. Buna görə bir gün evdən çıxdım və bazara getdim. İki varlı qohumumun yanına getdim. Onlara həmin ailənin vəziyyətini danışdım. Amma onlar əhəmiyyət vermədilər.
Hətta onlardan biri dedi: "Uşaqsan, bu işlər sənlik deyil. Bu böyüklərin işidir."
O vaxt mənim cəmi 15 yaşım vardı. Onların bu davranışından sonra, artıq məsələni davam etdirmədim.Amma qəribə idi ki, əməl kitabımda bu kasıb ailəyə yardım etdiyim qeyd olunmuşdu!
Masadakı gəncə dedim: "Mən axı onlara yardım etməmişdim!?"
O cavab verdi: "Amma sən bu işi etmək niyyətində idin və bu məqsədlə çalışdın, sadəcə nəticə ala bilmədin. Bu səbəblə niyyətin və etdiyin cəhd əməl kitabında qeyd olunub."
Əslində, yaxşı niyyətlərimin bir çoxu əməl kitabımda qeyd olunmuşdu. Harada ki, yaxşı bir əməl etmək istəmiş, amma imkanım olmamışdı, amma bunun üçün hərəkət etmişdimsə — qeyd olunmuşdu.
Şükürlər olsun ki, pis və günah niyyətlər qeyd olunmamışdı.

İmam Sadiq (ə) buyurur: «Mömin bir şəxs yaxşı işi niyyət edib amma onu yerinə yetirə bilməzsə, həmin şəxs üçün Allah dərgahında bir savab yazılar (fikrin savabı); və əgər o işi yerinə yetirərsə, on bərabər savab yazılar. Lakin pis işi niyyət edib onu etməzsə, onun üçün heç bir cəza olmayacaqdır».
Üsuli-kafi, 2-ci cild, 125-ci səh.

# Niyyət

Bu hadisəni çox yaxşı xatırlayırdım.  əməl tamamilə ixlasla, yalnız Allah üçün edilmişdi. Özümlə fəxr etdim və dedim:
"Şükür Allaha. Bu işi doğrudan da sırf Allah rizası üçün etmişdim."
Hadisə belə idi:
Bir gün gənclik dövründə dostlarla birlikdə istirahət və üzmək üçün Zayəndə çayın (İsfahandakı çay) ətrafına getmişdik. O zaman çayın su bol idi və biz üzürdük.
Birdən bir qadının çığırtısı və bir kişinin fəryadı hamını dondurdu! Kiçik bir oğlan uşağı suya düşmüşdü və çırpınırdı. Amma heç kim cürət edib suya atılmırdı.
Mən isə üzməyi və suda boğulanı xilas etməyi bacarırdım.
Suya atılmaq üçün hazırlaşdım, amma dostlarım mane oldular! Dedilər: "Bura bəndə yaxınıdır, su səni özünə çəkib aparar, çox təhlükəlidir!"
Amma bir anda dedim: "Yalnız Allah üçün" — və özümü suya atdım.
Şükür Allaha, həmin uşağı xilas edə bildim. Nə olursa-olsun, onu sahilə çıxardım. Dostların köməyi ilə sudan çıxdıq. Valideynləri mənə çox təşəkkür etdilər.
Özümü quruladım və paltarımı dəyişdim. Artıq getmək istəyirdik. Həmin ailə mənim ünvan və nömrəmi aldı.
Bu ixlaslı əməl Allah dərgahında çox gözəl şəkildə qeyd olunmuşdu. Mən də sevincli idim. Ən azından bir ixlaslı əməl tapmışdım. Bilirdim ki, bəzən ixlasla edilən bir əməl insanı xilas edə bilər.
O əməl əməl dəftərimdə böyük hərflərlə yazılmışdı, anlayırdım ki, bu böyük bir iş imiş.
Amma birdən gördüm ki, bu ixlaslı əməl də silinmək üzrədir!
Qəzəblə dedim: “Axı siz demədiniz ki, sırf Allah üçün edilən əməllər silinməz? Mən bu işi ixlasla yerine yetirmişdim. Niyə bu da silinir!?”
Masadakı gənc təbəssümlə dedi: “Düzdür. Amma sən evə qayıdarkən öz-özünə nə dedin?”

Birdən o anların filmi göstərildi. Daxili niyyətim danışırdı. Öz-özümə deyirdim:
“Mən çox böyük iş gördüm. Əgər mən həmin uşağın valideyni olsaydım, hər kəsə xəbər verərdim ki, bir gənc bizim uşağın canı üçün özünü təhlükəyə atdı. Əgər mən bu vilayətin rəhbəri olsaydım, ona xüsusi hədiyyə verərdim. Hətta qəzet və jurnallar müsahibə almalı idi!”
Ertəsi gün bütün bu hadisələr baş verdi. Xəbər agentlikləri və qəzetlər mənimdən müsahibə aldılar. Bölgə rəhbəri özü həmin uşağın ailəsilə birlikdə mənə təşəkkür etməyə gəldi və mənə qiymətli hədiyyə verdi...
Masadakı gənc dedi: “Sən əvvəlcə bu işi Allah rizası üçün etdin, amma sonra onu korladın. Dünyəvi mükafat istədin və onu da aldın, düzdür?”
Başımla təsdiqlədim və kədər içində dedim: “Bəli, hamısı düzdür...”
Gənc dedi: “Çoxları əməllərini Allah üçün edirlər, amma ən əsası budur ki, bu ixlası sona qədər qoruyub saxlasınlar.”
Bir anlıq içimdən dedim: “Əllərim bomboşdur!”
Masadakı gənc dedi: “Çoxları əməllərini Allah üçün edir, amma sonra onları dünya üçün dəyişirlər. O işlər yalnız həmin dünyəvi insanlar üçün dəyərli olur. Amma Allah üçün olan bir işi, sonuna qədər ixlasla qorumaq lazımdır.”
Sonra əlavə etdi: “Əməllər niyyətə bağlıdır.”

İmam Sadiq (ə) (möminin niyyətinin onun əməlindən üstün olmasının səbəbi barədə sualın cavabında):–«Çünki ola bilər ki, bəzən əməl insanın riyakarlıq etməsi və özünü yaradılmışlara göstərməsi üçün yerinə yetirilsin. Niyyət isə, xalis şəkildə aləmlərin Rəbbinə məxsusdur. Buna görə də Allah-taala niyyətə görə əməl üçün vermədiyi bəxşişləri əta edir.»
Kənzul-Ummal, hədis 7238

# Kərbəla ziyarəti

Böyük bir çətinlik yaşayırdım.Yaxşı əməllərim çoxlu zarafatlar, insanların arxasınca danışmaq, qeybət və s. səbəbindən puç olurdu və pis əməllərim isə qalırdı. Amma bir işi ixlasla (səmimi niyyətlə) etdiyim zaman, həmin əməl pis işlərimin silinməsinə səbəb olurdu.
Çünki Quranda buyurulub: "Həqiqətən, yaxşı əməllər pis əməlləri silib aradan aparar."
Əhli-Beytin ziyarətləri əməl dəftərimdə çox müsbət təsir buraxmışdı.
Əlbəttə, günahla çirklənməmiş, mərifətlə edilən ziyarətlər.
Amma bu çox çətin idi. Hər günümüz dəqiqliklə yoxlanılır və hesaba alınırdı.Ən kiçik əməllər belə nəzərdən keçirilirdi. Günlük əməllərim yoxlanıldığı zaman, bir gün gənclik illərimə çatdıq. Səksəninci illərin ortaları.
Birdən, masanın arxasında oturan gənc dedi:
İmam Hüseynin əmri ilə sizin beş illik əməliniz bağışlanıb. Bu beş il hesab edilməyəcək."
Təəccüblə dedim: "Bu nə deməkdir!?"
Dedi: "Yəni, bu beş ildəki günahlarınız bağışlanıb və yaxşı əməlləriniz qalıb."
Bilmirsiniz, bu xəbəri eşidəndə nə qədər sevinmişdim.
Əgər siz də o vəziyyətdə olsaydınız, bu xəbəri eşitməkdən aldığım ləzzəti hiss edərdiniz.Beş il heç bir hesab-kitabsız?
Dedim: İmam Hüseyn nəyə görə mənə belə lütf edib?
Həmin anda mənə hadisəni göstərdilər. Səksəninci illərdə, Səddamın süqutundan sonra bir neçə dəfə Kərbəlaya səfər etməyə müvəffəq olmuşdum.

Bu səfərlərin birində karvanımızda bir yaşlı kar və lal kişi var idi.
Karvan rəhbəri mənə dedi: "Bu qocaya baxa bilərsənmi? Onunla birlikdə olarsanmı?"
Mən də bir çoxları kimi yalnız ziyarətə getmək və Mövlamla tək qalmaq istəyirdim. Amma könülsüz də olsa, qəbul etdim.
İş düşündüyümdən daha çətin oldu. Bu qocanın düzgün düşüncəsi və yaddaşı yox idi. Onu tam şəkildə qoruyub gözləməliydim.
Bir an belə tək buraxsaydım, itib-batardı.
Nəticədə bütün Kərbəla səfərim bu qocaya baxmaqla keçdi.
Bu qoca hər gün mənimlə birgə hərəmi ziyarət edib qayıdırdı.
Mənim diqqət və hüzurum azalmışdı, çünki daim onun keşiyində dayanmalıydım.
Son gün bir paltar almaq istədi. Satıcı başa düşəndə ki, bu kişi anlamır, qiyməti bir neçə dəfə baha dedi.
Mən irəli gəldim və dedim:
"Nə danışırsan? Bu kişi Mövlamızın zəvvarıdır".
Niyə belə baha deyirsən? Bu paltarın qiyməti çox ucuzdur".
Nəticədə bu paltarı onun üçün daha ucuz qiymətə aldım.
Birlikdə mağazadan çıxdıq. Mən əsəbi idim, o isə sevincli.
Öz-özümə dedim: "Bax, bu dəfə Kərbəla bizə heç ləzzət vermədi. Nə qədər əziyyət çəkdik!"
Birdən qoca dayandı, üzünü hərəmə çevirdi və barmağı ilə məni göstərərək İmama təqdim etdi. Və o dilsiz-dodaqsız hallarıyla mənə dua etdi.
Masadakı gənc dedi: "Bu qocanın duası ilə İmam Hüseyn (ə) sənə şəfaət etdi və sənin beş illik günahların bağışlandı."
O vəziyyətdə olsaydınız, bu xəbərin mənə necə böyük sevinc verdiyini anlaya bilərdiniz.Əməllər kitabımda yüzlərlə səhifə irəli getdi. O illərin yaxşı əməllərinin hamısı qeyd olunmuşdu və günahları silinmişdi.

# Möminə əziyyət

Gənclik dövründə şəhərimizin Bəsic bazasında fəaliyyət göstərirdim. Gündüzlər və gecələr dostlarımızla birlikdə olurduq. Cümə gecələri isə hamımız Bəsic bazasında toplanırdıq və Quran dərsindən sonra hərbi fəaliyyətlər və yoxlama edirdik. Bəsic bazasının arxasında bizim şəhərin qəbiristanlığı yerləşirdi. Bəzən dostlarımıza əyləncə məqsədilə kiçik zarafatlar edirdik! Amma bütün bu zarafatların əvəzini orada ödədim.

Bəzi cümə gecələri səhərə qədər bazada qalırdıq.

Bir qış gecəsi, çox qar yağmışdı. Bir dostum dedi:

"Kim indi qəbiristanlığın sonuna qədər gedə bilər?"

Mən dedim:

"Bu, çətin bir şey deyil. Mən indi gedərəm."

O dedi:

"Amma ağ geyim geyməlisən!"

Mən tamamilə ağ geyinib yola çıxdım. Qarın üzərində addımlarımın səsi uzaqdan da eşidilirdi. Mən qəbiristanlığın sonuna doğru getdim! Qəbiristanlığın sonlarına yaxın bir nəfərin Quran oxuduğunu eşitdim! Seyyid ruhani bir qoca idi,hər cümə gecəsi gecə yarısına qədər qəbiristanlığın sonunda, bir qəbirdə Allaha ibadət edib, Quran oxuyurdu. O zaman başa düşdüm ki, dostlarım sadəcə bu şəkildə Seyyid ilə zarafat etmək istəyirdilər. Geri qayıtmaq istəyirdim, amma düşündüm ki, əgər indi geri qayıtsam, dostlarım məni qorxmuş görəcəklər. Ona görə də qəbiristanlığın sonuna qədər getdim.

Hər dəfə addımlarımın səsi yaxınlaşdıqca, Seyyidin Quran oxuma səsi də yüksəlirdi! Onun səsindən qorxduğunu başa düşdüm, amma yoluma davam etdim. Nəhayət, onun ibadət etdiyi qəbrin üstünə gəldim. Birdən məni gördü və qışqırdı, çox qorxdu. Mən də qorxduğum üçün qaçmağa başladım.Seyyid qarın üzərindəki izlərimi görüb məni izləməyə başladı. Bazaya çatanda çox qəzəbli idi. Başda inkar etdim, amma sonra ondan üzr istədim. O, narahat halda bazadan çıxdı.

İndi isə bu hadisədən illər sonra, əməl dəftərimdə həmin gecənin hekayəsini gördüm.
Bilməzsiniz, nə hiss edirdim, bir günah və ya səhv əməlimi əməl dəftərimdə gördükdə, xüsusən də birini narahat etdiyim üçün içimdə əzab çəkirdim. Sanki onunda nə iztirab keçirdiklərini mən hiss edirdim.
Bir tərəfdən, belə vəziyyətlərdə sol tərəfimdən alovlu külək əsirdi, elə bil bədənimin yarısı onun istiliyindən yanırdı!
Bu cür əməllərimə görə elə bir alov gördüm ki, artıq gözlərimin alovu görməyə taqəti çatmırdı.
O an gördüm ki, o qoca Seyyid( bir neçə il əvvəl vəfat etmişdi), uzaqdan gəlib və masanın arxasında oturmuş gəncin yanında dayandı.
Seyyid o gəncə dedi: "Mən bu adamı bağışlamıram. O, mənə əziyyət edib. O, məni qorxutdu."
Mən də dedim: "Allah şahid olsun, bilmirdim ki, Seyyid qəbirdə ibadət edir."
Gənc mənə baxıb dedi: "Amma yaxınlaşanda gördün ki, Quran oxuyur. Niyə o zaman geri qayıtmadın?"
Mənim cavabım yox idi. Nəticədə, yalvarışlarımdan sonra, iki illik ibadətlərimin savabını aldılar və onu seyyidin əməl dəftərinə yazdılar ki, Seyyid razı olsun.
İki illik ibadətim və bu iki ildə camaat namazı qıldığım bu namazların savabı bir möminə əziyyət verdiyim üçün əməl dəftərimdən silindi.

Allahın Peyğəmbəri (s):«Kim möminə onu qorxudan baxışlarla baxsa, Allah Öz kölgəsindən başqa bir kölgə olmayacaq gündə onu qorxudar.»
Biharul-Ənvar, c.75, səh.150, hədis 13
Allahın Peyğəmbəri (s):«Mömini incidən şəxs şübhəsiz ki, məni incitmişdir.»
Biharul-Ənvar, c.67, səh.72, hədis 40

Əməl dəftərimdə səhifələrin birində başqa bir möminə əziyyət verdiyim bir hadisə ilə qarşılaşdım. Bir dostum vardı ki, bir-birimizlə çox zarafat edirdik Bir dəfə rəsmi bir yığıncaqda onunla zarafat etdim və onu çox pis bir vəziyyətə saldım. Mən özüm də bildim ki, pis iş görmüşəm, buna görə də dərhal ondan üzr istədim. O, heç nə demədi. Zaman keçdi, bir müddət sonra əməliyyat üçün xəstəxanaya gedəndə yenə də o dostuma zəng etdim və dedim:

" Mən sənə çox pislik etdim. Bir dəfə cəmiyyət qarşısında səni rüsvay etdim. Xahiş edirəm məni bağışla. Mən bəlkə bu xəstəxanadan heç evə qayıtmaram."

Sonra əməliyyat barədə danışdım və yenə də ona yalvardım ki, meni bağışlasın. O dedi:

"Bağışladım, inşallah sağ-salamat qayıdarsan."

O gündə əməl dəftərimdə həmin hadisəni gördüm. Masanın arxasında oturan gənc dedi:

"Bu dostunuz elə dünən gecə sizi bağışlayıb.Əgər onun razılığını almasaydınız, bütün yaxşı əməllərinizi verməliydiniz ki, onun razılığını qazanasınız. Zarafat deyil, bir möminin abırını aparmışdınız".

İmam Sadıq (ə) buyurub: "Mömininin hörməti hətta Kəbədən də daha yüksəkdir."

Peyğəmbərdən (s) təsirli bir kəlam gördüm. Bir gün O, Kəbəyə baxıb belə demişdi:

"Ey Kəbə! Sənin halın nə qədər gözəldir, Allah sənin böyüklüyünü və hörmətini necə də yüksək tutub! And olsun Allaha, möminin hörməti səndən daha yüksəkdir. Çünki Allah yalnız bir şeyi sənə haram etmişdir, amma möminə üç şey haram edib: mal, can və abır, ya ki, heç kəs onun barəsində pis bir şey düşünməsin."

Rouzətəl -vaizin, cild 2, səh. 129

*Müsahibə zamanı, o bir neçə dəfə ağladı. Bu xatirələri xatırlamaq onun üçün çox çətin idi.

# Töhmət

İstədim oturub doyunca ağlayım.Bir boş-boş zarafata görə iki illik ibadətimi verdim. Qeybətlərə görə ən yaxşı əməllərim silinirdi. Allahın hesabı nə qədər dəqiqdir. Nə qədər yanlış işləri zarafat kimi qəbul edib etdik və indi peşman oluruq.
Bu zaman masa arxasında oturan gənc dedi: "Biri var burada dörd ildir sizi gözləyir! Bu şəxs yaxşı əməllər sahibidir və bərzəx cənnətinə getməli idi, amma sizə görə gözləyir."
Mən təəccüblə dedim: "Kimdir?"
Bir az sonra məscidimizin yaşlı insanlarından birini gördüm, o da qarşımdakı gəncin yanında dayanmışdı. O çox hörmətlə mənə yaxınlaşdı və dedi:
"Nə yaxşı, neçə illərdir səni gözləyirəm." Bir az söhbət etdikdən sonra, yaşlı şəxs əlavə etdi:
"Bir zamanlar məsciddə və bəzi mədəni fəaliyyətlərdə, bir qrup insanın içində sənə töhmət vurdum. Buna görə gəldim ki, məni bağışlayasan"
O an mənə göstərdilər. Mən məsciddə fəaliyyət göstərirdim.
O ,bir neçə nəfərlə küncdə oturmuşdu. Sonra mənim arxamca məni yersiz yerə ittiham etmişdi. O mənə töhmət vurmuşdu. O, bizim niyyətimizi şübhə altına almışdı.
Maraqlı burasıdır ki,o mənə töhmət vuranda mən hələ yenicə bəsicdə fəaliyyətə başlamışdım hələ cavan idim!
yaxşı bir adam idi. Amma mənim əməllərim çoxu silinmişdi.
Masa arxasında oturan gəncə dedim:
"Doğrudur, o yaxşı insandır, amma mən belə asanlıqla haqqımdan keçmərəm. Əlimdə heç nə qalmayıb, ondan nə ala bilirsənsə, al!"

İmam Sadiq (ə):«Mömin öz (mömin) qardaşına töhmət vuran zaman iman onun qəlbində duz suda əridiyi kimi əriyər.»
əl-Kafi, c.2 səh.361, hədis 1

Gənc mənə döndü və dedi:
"Bu bəndə Allahın rizası üçün çox xeyirli bir iş edib və bununla çox böyük savablar qazanır. O, şəhərinizdə bir Hüseyniyyə inşa edib ki, insanlar oradan faydalanır. Əgər istəyirsinizsə, bütün Hüseyniyyənin savabını ondan alıb, sizin əməl dəftərinizə yazım ki, onu bağışlayasınız."
Mən öz-özümə düşündüm: "Bir töhmət üzündən bir Hüseyniyyənin savabını almaq? Bu çox yaxşıdır." O bəndə, o yaşlı adam çox kədərləndi və çox üzüldü, amma başqa çarəsi yox idi. Bir böyük xeyir savabını bir iftira üzündən verdi və bərzəx cənnətinə tərəf getdi. Bir iftira ilə bir Hüseyniyyənin savabını, Allah üçün xalis niyyətlə tikmişdi və getdi!
Amma bütün diqqətim o anda buna yönəlmişdi ki, bir kəs, bir gəncə töhmət vurduğuna görə belə bir böyük savabları itirirsə, hər gün və hər gecə başqalarını mühakimə edib, onların haqqında danışan insanların aqibəti necə olacaq?!
Biz ki, rahatlıqla, öz qohumlarımız, dostlarımız və tanışlarımız haqqında istədiyimizi deyirik...
Sonra, masa arxasında oturan gənc, möminin abırının böyüklüyünə işarə etdi.

---

Nur surəsi, ayə 19:
Həqiqətən iman gətirənlərin arasında çirkin əməlin yayılmasını sevənlər (və bu istiqamətdə fəaliyyət göstərənlər) üçün dünya və axirətdə ağrılı bir əzab vardır...."
İmam Sadiq (ə) bu ayəni şərh edərkən buyurur:
"Hər kəs bir mömin haqqında nəsə görsə və ya eşitsə, onu başqalarına desə, bu ayə o şəxsə şamil olur".

# Göz yaşı

Mat-məəttəl dayanıb əməl dəftərimə baxırdım.Özümü müdafiə etmək gücünə belə malik deyildim.

Biri gəldi iki illik namazlarımı apardı, birisi yaxşı əməllərimdən bir qismini götürüb getdi.Sonra biri daha...

Mənim halım sakitcə dayanıb baxan qoyuna bənzəyirdi. Çünki özümü müdafiə edə bilmirdim.Dünyada, insan nə qədər günahkar olsa da, məhkəmədə özünü müdafiə edir və vəkil tutub, özünü müəyyən qədər günahından azad etməyə çalışır. Amma burada... nə demək olar ki? Sadəcə baxırdım. Hətta insanın ağlından keçənlər belə hamıya bəllidir, necə əməllərindən danışmaq olar? Buna görə burada heç kim haqsız yerə özünü müdafiə edə bilmir.Əməllərimdə nə qədər günah gördüm .

Birisi mənim yanımda qeybət edib və ya kiməsə töhmət vurub, mən də onun günahında şərik olmuşam. Mənim üçün zərrə qədər dəyəri olmayan nə qədər günah əməllərimi gördüm ki,bu yalnız insana xəcalət verirdi.

Çox çətin idi. Həqiqətən Allahın hesabı və kitabı çox dəqiqliklə aparılırdı. Amma mənim əmələrim araşdırılarkən və işlərimin nöqsanlarını gördüyüm zaman, soldan çox güclü bir istilik üzərimə gəlirdi! Bu istilik o qədər güclü idi ki, bədənimi tamamilə yandıracaq kimi hiss edirdim. Bədənimin hər yerində yanma hissi var idi, yalnız üzüm, sinəm və əllərim yanmırdı!

Bu mənim üçün çox təəccüblü oldu. Niyə bədənimin bu hissələrində yanma hiss etmirəm?! Bu sualımı dərhal başa düşdüm.Mən gənclik illərindən məscidin rouzə məclislərində iştirak edirdim. Atam mənə tövsiyə edirdi ki, İmam Hüseyn(ə) və ya Hz.Zəhra(s.ə) , Əhlibeyt(ə) üçün tökdüyün göz yaşlarının qədrini bil. Bu göz yaşları dəyərlidir və onun qiymətini qiyamətdə anlayacağıq. Atam böyüklərdən və minbərdən eşitmişdi ki, bu göz yaşlarını üzə və sinəyə çəkin. Mən də, Əhlibeyt (ə) məclislərində ağladıqca, göz yaşlarımı üzümə və sinəmə çəkirdim. İndi başa düşdüm ki, niyə bu üç bədən üzvüm yanmır!

# Beytul-mal

Gəncliyimdən və özümü tanıdığım ilk gündən bəri, haqqun-nas və beytül-mala qarşı çox həssas idim.Atam mənə dəfələrlə tövsiyə edirdi ki, beytül-mala qarşı diqqətli ol, səhlənkarlıq etsən özünü çətinliyə salarsan.
Digər tərəfdən, mən məscidlərdə, dini məclislərdə böyümüşdüm və daim bu mövzuları eşidirdim.
Bu səbəbdən, SEPAH-da (İslam İnqilabı Keşikçiləri Korpusu) işə başlayanda çalışırdım ki, iş vaxtı şəxsi işlərlə məşğul olmayım.
Əgər gün ərzində şəxsi bir işim və ya şəxsi telefon danışığım olurdusa, o qədər və ya bir az da artıq əlavə maaşsız işləyirdim ki, boynumda haqq qalmasın.
Öz-özümə deyirdim: "Az maaş almaq, amma halal almaq daha yaxşıdır."
Digər tərəfdən, iş yerində də müraciət edənlərin işlərini diqqətlə və razılıqla yerinə yetirməyə çalışırdım.
Bunların hamısını əməllər kitabımda (əməl dəftərində) görürdüm.
Cavan bir məmur mənə dedi: "Allaha şükür et ki, boynunda beytül-mal haqqı yoxdur, yoxsa bütün İran xalqının razılığını almaq məcburiyyətində qalardın!"
Həqiqətən də, orada elə insanları görürdüm ki, çox ağır vəziyyətdə idilər — xalqın razılığını almaq yükü və beytül-malın məsuliyyəti onların üzərində idi.
Yəni asanlıqla məndən əvvəl vəfat etmiş insanları görə bilirdim, ya da məndən sonra gələcək olanları! Hətta birini görsəydim, danışmağa ehtiyac yox idi, dərhal başa düşürdüm ki, nə problemi var. Bütün bunları bir anda və bir baxışda anlaya bilirdim.Orada bir daha anladım ki, artıq zaman və məkan anlayışı qalmamışdı.

Nə qədər adam gördüm ki, dövlət malını mənimsəyib, oğurluq edib o dünyaya gəlmişdilər və indi bütün bu ölkənin xalqından, hətta gələcəkdə dünyaya gələcək insanlardan belə, halallıq istəməli idilər!
Amma bu qalın kitabın səhifələrindən birində bir məsələ yazılmışdı ki, bu məni çox qorxutdu!
Yadıma düşdü ki, əsgərlərdən biri hərbi xidmətinin sonunda bir neçə cild şəhid xatirələrindən ibarət kitabı gətirib bizim bölməyə qoymuşdu və demişdi: “Bunlar burada qalsın, gələcək əsgərlər boş vaxtlarında istifadə etsinlər.”
Kitablar çox yaxşı idi. Bir il ərzində həmin rəfdə qaldı və növbə ilə gecə çalışan və ya boş vaxtı olan əsgərlər onlardan faydalanırdı.
Bir müddət sonra mən o bölmədən başqa bir yerə köçdüm. Şəxsi əşyalarımla birlikdə həmin kitabları da götürdüm.
Yeni bölmədə bir ay işlədim və gördüm ki, kitablar istifadə olunmur. Yeni yerin şəraiti əvvəlki kimi deyildi, əsgərlərin və şəxsi heyətin boş vaxtı az idi.
Ona görə kitabları yenidən əvvəlki yerə qaytardım və dedim: "Burada daha yaxşı istifadə olunacaq."
O gənc məmur isə mənə bu kitabların məsələsinə toxundu və dedi: “Bu kitablar beytül-mala aid idi və o yer üçün nəzərdə tutulmuşdu. Sən icazə almadan onları başqa yerə apardın. Əgər onları geri qaytarmasaydın, gələcəkdə o bölməyə gələcək bütün əsgərlərin və işçilərin halallığını almaq məcburiyyətində qalardın!”
Həqiqətən çox qorxdum. Öz-özümə dedim: Mən ki, xeyir niyyəti ilə bu işi görmüşdüm. Kitablardan şəxsi istifadə etməmişdim, evə aparmamışdım, sadəcə başqa bir bölməyə aparmışdım ki, daha çox istifadə olunsun. Allah o kəslərin köməyi olsun ki, beytül-malı öz şəxsi mülkü hesab ediblər!

Elə həmin vaxt iş yoldaşımı gördüm. O, bizim dostlar arasında ixlaslı və imanlı bir şəxs idi.
O, komandirindən müəyyən bir məbləğ pul almışdı ki, bölmələri üçün bəzi əşyalar alsın. Lakin bu pulu idarənin şkafına qoymaq əvəzinə, cibində saxlamışdı.
Ertəsi gün isə yol qəzasında dünyasını dəyişdi.
İndi o aləmdə məni görəndə yanıma gəldi və dedi: "Ailəm zənn etdi ki, bu pul mənim şəxsi pulumdur və onu xərclədilər. Allah xatirinə get, onlara de ki, bu pulu aidiyyəti şəxsə təhvil versinlər. Mən burada çox pis vəziyyətdəyəm. Allah xatirinə mənə kömək et."
O zaman daha yaxşı başa düşdüm ki, niyə bəzi böyük şəxslər beytul-mala bağlı bu qədər həssas olmuşlar.
Düz deyirlər ki, ölüm xəbərsiz gəlir.
Sonradan mən onun mesajını ailəsinə çatdırdım, amma necə gördüyümü deyə bilmədim. Həmd olsun Allaha ki, onun problemi həll olundu.

Peyğəmbərimizin (s) həyatında belə bir hadisə də nəql olunur:
Xeybər səfəri zamanı bir səhabəyə qəfil bir ox dəydi və o, yerindəcə şəhid oldu. Səhabələr dedilər: "Cənnət ona mübarək olsun."
Bu xəbər Peyğəmbərə (s) çatanda buyurdu: "Mən sizin kimi düşünmürəm. Çünki o geydiyi əbanı beytül-maldan icazəsiz götürüb və Qiyamət günü bu əba od kimi onu bürüyəcək."
Bunu eşidən səhabələrdən biri dedi: "Mən də icazəsiz iki cüt ayaqqabı götürmüşəm."
Peyğəmbər (s) buyurdu: "Onları geri qaytar, yoxsa Qiyamət günü onlar od kimi ayağına dolanacaq".

# Sədəqə

Bir -bir əməllər gözdən keçirildi.Biz əməllərin batinini, yəni gerçək mahiyyətini dərk edirdik.Yəni hadisələrin əsl səbəbini və bir çox hadisələrin arxasındakı gerçəkliyi anlayırdıq.Bu gün "bəxt" və ya "şans" adı ilə tanıdığımız şey, orada ümumiyyətlə qəbul edilmirdi. Hər bir hadisə müəyyən bir səbəbə bağlı olaraq baş verirdi.
Gənclik dövrümdə SEPAH üzvləri ilə bir təlim düşərgəsinə getmişdik.
Gündüz dərslər bitmişdi və düşərgə proqramı gecə davam edirdi. Bilməzsiniz, yoldaşlarla necə zarafatlar edib, ətrafdakıları incidirdik.
Çoxu yorğun olub çadırlarda yatırdı, biz isə bir dostumla birlikdə gedib onları oyadırdıq, narahat edirdik!Buna görə də bizə kiçik bir çadır verdilər və bizi digərlərindən ayırdılar.Düşərgənin ikinci gecəsi idi. Yenə də başqalarını narahat etdik və tez öz çadırımıza qayıdıb yatmaq istədik.
Təbii ki, bu zarafatlar nəticəsində etdiyim savab işlərdən çox şey itirdim!
Gecənin sonlarına doğru çadırımıza qayıtdıqda, gördüm ki, bir nəfər...
Özüm üçün xüsusi bir yastıq gətirmişdim və iki yorğanla özümə gözəl bir yataq hazırlamışdım.Çadırımızda işıq yox idi, ona görə də kimin yerimdə yatdığını fərq etmədim.Elə bildim ki, uşaqlardan biri məni zarafatla narahat etmək istəyir.Ona görə də, ayağımda çəkmə olduğu halda, irəliləyib yatana bir təpik vurdum!
Birdən gördüm ki, düşərgənin imam camaatı olan Hacı Ağa... yerindən sıçradı, əlini ürəyinə qoydu və qışqırdı: "Kim idi? Nə oldu?"
Qorxudan çaşdım. Tez çadırdan bayıra çıxdım.
Sonradan bildim ki, Hacı Ağa yatmağa yer tapmadığından, uşaqlar zarafat məqsədilə ona demişdilər: "Hazır yataq var, gəl,burada yat!"
Amma mən ona çox pis bir təpik vurmuşdum. Yazıq bir əlini ürəyinə, bir əlini belinə qoymuşdu!
Hacı Ağa çadırdan çıxıb əsəbi halda dedi: "İnşallah ayağın qırılsın! Mən nə etmişdim ki,mənə belə təpik vurdun?"

İrəli gedib dedim: "Hacı Ağa, səhv etdim, bağışlayın. Sizi başqa biri ilə səhv saldım.Ümumiyyətlə ,ayağımda çəkmənin olduğu yadıma düşmədi.Ağlıma gəlmədi ki, birdən vururam ,bərk dəyə bilər."
Həmin gecə çox üzr istədim. Sonra Hacı Ağaya dedim: "Bağışlayın, siz çadıra qayıdıb rahat yatın, mən maşında yatacağam. Sadəcə icazə verin, yastığımı götürüm."
Əlimə fənər alıb çadıra girdim. Yastığı götürən kimi gördüm ki, yastığın altında ovuc boyda bir əqrəb var!Hacı Ağa da çadıra girdi və necə olsa da, əqrəbi öldürdük.Hacı Ağa mənə baxıb dedi: "Canımı xilas etdin, amma pis təpik vurdun, hələ də ağrıyıram."Mən isə maşına gedib orada yatdım. Ertəsi gün düşərgə bitdi və evə qayıtdıq.
Ertəsi gün, döyüş idman növləri zalında məşq edərkən ayağım sındı.
Amma maraqlı məqam o idi ki, həmin günün hadisəsi əməl dəftərimdə tam təfsilatı ilə yazılmışdı.
Masanın arxasındakı cavan mənə dedi: "O əqrəb səni öldürmək üçün göndərilmişdi, amma sənin o gün verdiyin sədəqə ömrünü uzaltdı və ölümünü təxirə saldı!"
O an o sədəqə ilə bağlı görüntünü gördüm və yadıma düşdü ki, həmin gün axşamüstü həyat yoldaşım zəng etmişdi və demişdi:
"Filankəs qonşumuz çox çətin vəziyyətdədir, yeməyə bir şeyləri belə yoxdur. İcazə verirsənmi, yığdığın pullardan bir qədər onlara verim?"
Mən dedim: "Axı bu pulları motosiklet almaq üçün yığmışdım... Amma eybi yox, nə qədər istəyirsənsə, ver."
Cavan dedi: "Verdiyin sədəqə ölümünü təxirə saldı. Amma o ruhani ki, ona təpik vurmuşdun,o həmin gün pis bir iş görmüşdü ki, bu zərbəni almalı idi.Amma onun etdiyi qarğış səbəb oldu ki, sənin də ayağın sınsın."Sonra sədəqə verməyin və insanlara xeyirxahlıq etməyin əhəmiyyətindən danışdı.

İmam Baqir (ə) buyurmuşdur:
"Sədəqə vermək, dünyanın yetmiş cür bəlasını dəf edir və sədəqə verən pis ölümdən xilas olur."

# İnsanlara xidmət

Bir çox insanlar "insanların çətinliklərini həll etmək" kimi mühüm bir mövzunun yanından sadəcə ötüb keçirlər.
Əgər bir insan Allah bəndələrinin çətinliyini həll etmək üçün kiçik bir addım belə atsa, bunun təsirini həm bu dünyada, həm də axirətdə tam şəkildə görəcək.Əməllərimin yoxlanılması zamanı elə hallar gördüm ki, mənə çox qəribə gəldi.
Məsələn, bir nəfər məndən ünvan soruşdu, mən də onu tam şəkildə yönləndirdim. O da dua etdi və getdi.
Mən onun duasının təsirini əməl dəftərimdə aydın şəkildə gördüm!
Və ya Allah rizası üçün və insanların problemini həll etmək məqsədilə bir iş gördüyümdə, onun təsirini gündəlik həyatımda da müşahidə edirdim.
Bəzən gün ərzində bir hadisə baş verir və deyirik: "Yaxşı ki, belə olmadı" və ya "Şükür Allaha, bundan pis olmadı" — bunlar, problemlərini həll etdiyimiz insanların etdiyi duaların nəticəsidir.
Mən hər gün iş yerimə çatmaq üçün bir şosse yoldan keçirdim.Həmişə, əgər görsəm ki, kimsə avtobus gözləyir, mütləq maşına mindirərdim.
Bir gün hava yağışlı idi.Bir qoca qadın, əlində dolu bir çanta ilə yağışın altında qalmışdı.Baxmayaraq ki, təhlükəli idi, maşını saxladım və onu mindirdim.Onun palçıqlı çantası oturacağı çirkləndirdi, amma heç bir söz demədim.Qoca qadın, yol boyu ölənlərimin ruhuna salavat göndərirdi Sonra taksi pulunu vermək istədi, amma götürmədim və dedim:
"Nə qədər pul vermək istəyirsənsə, onun əvəzinə bizim dünyadan köçənlərimizə salavat göndər."
Mən o dünyada öz qohumlarımı və vəfat etmiş yaxınlarımı gördüm. Onlar o qoca qadının duaları və salavatları üçün mənə çox təşəkkür etdilər.

İmam Kazim(ə) buyurmuşdur: "Allah-taalanın yer üzərində elə bəndələri vardır ki, camaatın ehtiyaclarını ödəməyə çalışıqalacaqlar. Bir mömini sevindirən şəxsi Allah-taala da qiyamətdə sevindirər."

İnsanlara kömək etməyin bəhrəsini orada çox aydın şəkildə hiss edirdim.Bu köməkliyin təsirləri daha çox bu dünyada görünürdü.
Yəni insan bu dünyada başqasının işi üçün əziyyət çəkərsə, təsirini elə dünya həyatında daha çox müşahidə edər.
Yadımdadır ki, orta məktəb dövründə gecələrin çoxunu məscid və Bəsic təşkilatında keçirirdim.Qur'an dərsləri və dini məclislər bitdikdən sonra Bəsic bölməsində qalırdım, bəzən gecəni orada keçirib səhər məktəbə gedirdim.Bir orta məktəb şagirdi Bəsicə yazılmışdı.Çox gözəl siması və çox sadə bir təbiəti vardı.
Bir gecə Bəsicdə fəaliyyətlər bitəndən sonra saatıma baxdım; sübh azanına bir saat qalmışdı.Qalan dostlar evə getdi. Mən isə Bəsicin Qur'an otağına keçib gecə namazı qılmağa başladım.
O yeniyetmə qəfildən otağa girdi və cəld yanımda oturdu.Namazımı qurtarandan sonra təəccüblə soruşdum:
"Bir şey olub?"
Solğun rənglə dedi: "Heç nə. İndi nə namazı qılırdın?"
Dedim: "Gecə namazı. Sübh azanından əvvəl qılmaq müstəhəbdir, çox savabı var."
Dedi: "Mənə də öyrədərsən?"Ona namazı öyrətdim və yanımda namaz qıldı. Amma bilirdim ki, o, bir şeydən qorxur və narahatdır.Sübh namazını qurtardıqdan sonra birlikdə məsciddən çıxdıq.
Dedim: "Əgər bir problemin varsa, mənə de, mən də sənin qardaşın."

Dedi: "Məscidin qarşısında bir  gənc məni gözləyirdi. O, mənə hədə-qorxu gəlir. Hətta gecə yarısına qədər məni gözlədi. Mən qaçıb sənin yanına gəldim."
Ertesi gün, o gənc ilə ciddi danışdım və onu yaxşıca hədələdim. O gənc bir daha məscidə gəlmədi. Bu gənc də bizimlə dost oldu və məscidə davam etdi.
Təbii ki, onun düzgün yola yönəlməsi üçün çox vaxt sərf etdim. Şükürlər olsun ki, indi o, bizim məhəlləmizin imanlı gənclərindən biridir.
 Mənim dostlarımdan Sepaha işə düzəlmək istəyənlər, altı ay və ya daha çox gözləməli olurdular.Amma mənim işə qəbul olmağım cəmi  bir həftə çəkdi! Bütün dostlarım elə  düşünürdü ki, mənim tanışlarım var, amma...
Orada mənə dedilər: "O gəncə göstərdiyin əməyin, Allahın razılığı üçün etdiyin kömək, sənin işə qəbulunun daha asan olmasına səbəb oldu və işin daha sürətli tənzimləndi." Bu, onun dünyəvi mükafatı idi.
Onun axirət mükafatı isə sənin əməl dəftərində qorunur.
Hətta mənə dedilər: "Sənin evliliyinin asanlıqla baş tutması və yaxşı həyat tərzi sürməyin, başqalarını doğru yola yönəltmək üçün etdiyin yaxşı əməllərinin  nəticəsidir."

İmam Sadiq(ə) buyurmuşdur:"Möminin ehtiyacı olduğu zaman ona yardım edib ehtiyacını ödəyən şəxs üçün Allah-taala yetmiş iki rəhmət yazar. Bunlardan birini dünyada verib qalanını axirətə saxlayar. Dünyada verəcəyi rəhmət o olar ki, onun dolanışığını təmin edər."
İmam Rza(ə) buyurmuşdur: "Mömini qəm-qüssədən azad edən şəxsi Allah-taala qiyamət günü sevindirər."

Bir gün, həyat yoldaşım mənə dedi: "Məktəbdə çox zəif fiziki vəziyyətdə olan bir qız gördüm. O, bir neçə dəfə huşunu itirib .Mən araşdırdım, o bir yetim və himayəsiz qızdır. Gəl, bu gün gedək onların evinə. Ünvanlarını bilirəm".

Birlikdə yola düşdük. Şəhərin kənarında bir kiçik evə daxil olduq. Ev yalnız bir otaqdan ibarət idi və orada demək olar ki,zəruri əşyaları belə yox idi. Bir soyuducu və qaz sobası otağın kənarında yerləşirdi.

Ana və iki qız bu evdə tək yaşayırdılar. Qızların atası avtomobil qəzasında vəfat etmişdi.

Su içmək bəhanəsilə soyuducunun yanına getdim. Soyuducuda heç nə yox idi! Bu vəziyyəti görüb istiləndim. İlahi, nə edim?!

Maddi imkanım yaxşı deyildi. Onlara necə kömək edə bilərdim? Ağlıma bir fikir gəldi. Xalamın yanına getdim.O, bir şəhidin həyat yoldaşı idi və möminə, xeyirxah bir insandır. Onu həmin evə gətirdim. Evin vəziyyətini gördü. Mən də bir qədər yardım etdim və elə həmin gecə iki qız üçün gödəkçə və uyğun paltarlar aldıq.Xalam gecə ərzaq alıb geri döndü və onların soyuducusunu ərzaqla doldurdu. Sonrakı aylarda bacardığı qədər onlara yardım etdi.

Burada əməllərimə baxış keçirilərkən gördüm ki, xalamın həyat yoldaşı mənə tərəf gəlir. O, şəhid olmuşdu və Bərzəx cənnətində – şəhidlərlə birlikdə idi.Mənə çatanda məni qucaqlayıb öpdü. Çox təşəkkür etdi. Səbəbini soruşduqda dedi: "O yetim ailəyə yardım etmək tovfiqatını mənim həyat yoldaşıma verdin. Bilmirsən, bu iş sənə və həyat yoldaşıma nə qədər bərəkət və savab gətirdi.Allah bilir, insanların əlindən tutmaq sizin nə qədər dünya və axirət çətinliklərinizi həlli edir ".

---

İmam Sadiq (ə) buyurur:

“Hər kim mömin qardaşının bir hacətini yerinə yetirsə, Allah-Təala Qiyamət günü onun yüz min hacətini yerinə yetirər; biri behiştdir, digəri də budur ki, onun yaxınlarını da behiştə göndərər.”

Üsuli Kafi, cild 2, səh. 3

# Naməhrəm

Naməhrəm mövzüsü ilə bağlı çox şeylər eşitmişdim. Məsələn, bir naməhrəm kişi və qadın bir yerdə tək qaldıqda, üçüncüsü şeytandır. Yaxud, bir gənc Allaha yönəldiyi zaman şeytan naməhrəm mövzularını onun gözündə cilvələndirər.
Başqa bir yerdə isə deyilir ki, bekar insana şeytan daha çox vəsvəsə edər.
Bir çox dindar dostlarım şeytanın vəsvəsələrinə qapılaraq naməhrəmlə münasibətə diqqət etmədikləri üçün həyatlarında bir çox çətinliklərlə üzləşiblər .
Bu məsələ yalnız kişilərə aid deyil. Naməhrəmlə münasibəti qorumayan qadınlarda həyatda eyni çətinliklərlə qarşılaşırlar.
Burada, Həzrət Zəhra (ə) buyurduğu kəlamı dərk etdim:
Bir gün Peyğəmbər (s) soruşdu: "Qadın üçün ən üstün və xeyirli əməl hansıdır?"
Həzrət Zəhra (ə) buyurdu: "Qadın üçün ən yaxşı olan budur ki, nə bir naməhrəm onu görsün, nə də o bir naməhrəmi görsün".
Şükürlər olsun ki, gəncliyimdə belə mövzuları fikirləşməyə boş vaxtım olmayıb , elə gəncliyin əvvəlində evlənmişəm.

"Həzrət Əli (ə) qadınlara salam verirdi.Amma gənc qadınlarla salamlaşmaqdan çəkinirdi. Buyurardı ki, gənc qadınların səsinin məni həyəcanlandıracağından və günaha düşəcəyimdən qorxuram. Bunun zərəri salam verməyin mükafatından böyükdür."
Həzrət Peyğəmbər (s) buyurmuşdur:"(Naməhrəmə) baxmaq şeytanın zəhərli oxlarından biridir.Kim (naməhrəmə) baxmasa, Allah ona ilahi xof səbəbindən bir iman əta edər ki, qəlbində onun şirinliyini duyar."

Amma mənim əməl dəftərimdə bir məsələ var idi ki, şükürlər olsun ki, yaxşı nəticələndi.
Mobil telefonların yeni çıxdığı bir dövrdə dostlarıma mesaj göndərirdim. Əksər mesajlarım zarafat və lətifələrdən ibarət idi.
O zamanlar Telegram və sosial şəbəkələr yox idi. Ona görə də daha çox SMS istifadə edilirdi. Dostlarımız da cavab olaraq bizə smaylik göndərirdilər. Bu arada bir nəfər, mənə tanımadığım bir nömrədən romantik lətifələr göndərirdi. Mən də ona cavab olaraq lətifə göndərirdim. Kim olduğunu bilmirdim. Bir neçə dəfə zəng etdim, amma telefonunu açmadı. Lakin göndərdiyi mesajların əksəriyyəti romantik mesajlar idi. Buna görə bir dəfə başqa nömrədən ona zəng etdim, telefonu götürdü və mən heç bir şey demədən bu şəxsin bir gənc qadın olduğunu başa düşdüm! Dərhal telefonu kəsdim. O andan sonra ona heç bir mesaj göndərmədim və onun mesajlarına cavab vermədim.
Yadımdadır ki, masa arxasında olan gənc ilə çox söhbət etdim. Dəfələrlə insanın əməl və davranışları haqqında mənə izahlar verirdi. Gündəlik davranışlarımı göstərərkən mənə dedi: "Haram baxış və naməhrəmlə münasibət insanın mənəvi inkişafında çox çətinlik yaradır.
Allah -Təala Nur surəsinin 30-cu ayəsində belə buyurur: 'Möminlərə de: "Gözlərini haramdan saxlasınlar.'"
Sonra mənə dedi: "Əgər telefonu kəsməsəydin, əməl dəftərində ağır bir günah yazılacaqdı və dünyada böyük bir əvəzini ödəyəcəkdin."
Masa arxasında olan gənc, mənim şəhidliyə olan marağımı gördükdə çox təəccüblü bir söz dedi:
*"Əgər şəhid olmaq istəyirsinizsə və sizin adınıza şəhidlik yazılarsa, hər haram baxışınız sizin şəhidliyinizi altı ay geri salacaq."*

Mən o günləri yaxşı xatırlayıram. Xanımlar üçün düşərgə təşkil olunmuşdu. Mənə dedilər: "Bu düşərgənin təchizat işlərinə sən nəzarət etməlisən"
Qadınlarla gələn müəllimə düşərgəsinin işinə nəzarət edirdi.Mənim öhdəmə yalnız yemək proqramı və yeməyin paylanması verilmişdi. Həmçinin dedilər ki, əsgərlərdən istifadə etməyim.
Gündə üç dəfə yemək daşıyan maşınla düşərgə yerinə gedirdim, yeməyi paylayır, süfrəyə düzür və heç kimlə danışmırdım.
Birinci gecə düşərgədə olan qızlardan biri digərlərindən gec gəldi. Ətrafın sakit olduğunu hiss edincə, çox səmimi şəkildə salam verdi və hal-əhval tutdu. Başım aşağı idi, sadəcə salamına cavab verdim.
Ertəsi gün yenə gülərək və naz-qəmzə ilə yanıma gəldi. Yemək qablarını götürüb düşərgə ərazisindən çıxmamışdan əvvəl yenə bir şeylər dedi, güldü və elə sözlər danışdı ki...
Mən isə heç bir reaksiya vermədim.Hər dəfə bu düşərgəyə gələndə həmin gənc qızın şeytani davranışları ilə qarşılaşırdım. Amma Allah mənə kömək etdi ki, cavab verməyim.
Əməllərimi yoxlayarkən bu düşərgə səhnəsinə çatdıqda, masanın arxasındakı gənc mənə dedi:
"Əgər o qadının hiylə və tələsinə düşsəydin, yalnız abrını yox, işini və hətta ailəni də itirə bilərdin! Bəzi günahlar gündəlik həyatda bu cür pis təsir qoyur..."

Həzrət Peyğəmbər (s) buyurmuşdur:"(Naməhrəmə) baxmaq şeytanın zəhərli oxlarından biridir.Kim (naməhrəmə) baxmasa, Allah ona ilahi xof səbəbindən bir iman əta edər ki, qəlbində onun şirinliyini duyar."

# İmama canını fəda etmək

2009 ci ilin Rəcəb və Şəban aylarında mənə Məkkə və Mədinə ziyarətinə getmək nəsib oldu. Müqəddəs hərəmə daxil olduq.
Məscidul -həramı ziyarət edib qayıtdıqdan sonra karvanın ruhani rəhbəri mənə dedi:
"İndi üç bacı gəldi, zəhmət olmazsa, bu üç nəfəri təvaf üçün apara bilərsən?!."
Çox yorğun idim, amma qəbul etdim. Karvandan olan üç gənc qadın mənə tərəf gəldi. Gözüm onlara sataşmasın deyə başımı aşağı saldım. Artıq bir dəsmalım vardı. Dəsmalın bir ucunu öz əlimdə saxladım, o biri ucunu isə onlara verdim. Dedim:
"Təvaf zamanı geriyə baxmamalıyam. Həm də Rəcəb ayına görə Kəbənin ətrafı çox izdihamlı idi. Dəsmalın ucunu tutun və arxamca gəlin."
Bir-iki saat sonra, çox yorğun halda görüş yerinə qayıtdım. Bütün bu müddət ərzində, onlara heç baxmadım və heç danışmadım. Təvaflarını etdirmək mənim borcum deyildi, amma yalnız Allah rizası üçün bu işi gördüm.
Məkkədə olduğumuz günlərdə bir çoxları daim bazara gedirdilər və... amma mən bu cür işlərin əvəzinə, dəfələrlə tavaf edirdim. Əvvəlcə İslam İnqilabının Ali Rəhbərinin tərəfindən, sonra şəhidlərin adından təvaf edirdim və bu fürsətləri özüm üçün mənəvi qazanc bilirdim.
Əməllərimin yoxlanıldığı o anlarda, masanın arxasında duran gənc, bu əməlimə işarə edərək dedi:
"O qadınlarla etdiyin ixlaslı təvafa görə, əməl dəftərinə vacib Həcc savabı yazıldı!"
Sonra dedi: "Başqalarının adından etdiyin təvafların savabı isə sənin əməl dəftərinə ikiqat olaraq qeyd olunur".

Şəban ayının əvvəllərində Mədinəyə yola düşdük. Bir gün səhər Bəqi qəbiristanlığında ziyarətlə məşğul idim. Birdən gördüm ki, bir vəhabi məmuru Bəqi qəbirstanlığından şəkil çəkmək istəyən bir uşağın kamerasını əlindən alıb. Tez irəli getdim, kameranı onun əlindən alıb uşağa qaytardım.
Sonra qəbiristanlığın sonuna tərəf getdim. Mən Ziyərat-i Aşura oxuya-oxuya Osman ibn Əffanın qəbrinin qarşısına çatdım. Həmin vəhabi məmur arxamca gəlirdi və mənə tərs-tərs baxırdı. Birdən yanıma gəldi, əlimdən tutdu və fars dilində uca səslə dedi:
“Nə dedin?! Lənət oxuyursan?!”
Dedim: “Xeyr, burax əlimi!” Amma o qışqırmağa davam etdi və səs-küy salaraq digər məmurları da ətrafına topladı. Elə bu anda birdən mənə baxdı və Həzrət Əli (ə) haqqında pis bir söz dedi.
Artıq səssiz qalmağı münasib bilmədim. Bir an belə düşünmədən onun üzünə bərk bir sillə vurdum. Dərhal dörd məmur üstümə hücum çəkdi və məni döyməyə başladılar. Onlardan biri çiynimə bərk bir zərbə endirdi ki, ağrısı aylarla məni incitdi. Bir neçə zəvvar irəli gələrək məni onların əlindən aldılar və tez ordan uzaqlaşdım.
Amma əməllərin hesablandığı anlarda Bəqi qəbiristanlığındakı bu hadisəni mənə göstərdilər və dedilər:
“Sən ixlasla və yalnız Mövla Əli (ə)-yə olan sevginə görə o məmurla əlbəyaxa oldun və çiynin zərər gördü. Buna görə sənə Mövla Əlinin(ə) uğrunda canını fəda etməyin savabı yazıldı!”

---

Qeyd: Bu hadisə Səudiyyə Ərəbistanı məmurları ilə qarşıdurma üçün əsas olaraq istifadə edilməməlidir.

# Savab

Masada oturmuş gənc, əməllərimin çoxunun silindiyini görəndə maraqlı bir məqama diqqətimi çəkdi və dedi:
“Mən bəzi ağıllı insanlar görmüşəm ki, işlərini yalnız Allah rizası üçün görürlər. Amma sonra etdikləri yaxşı əməllərin savabını On dörd Məsumdan birinə (ə) hədiyyə edirlər.
İnsanlar həyatda günah və səhvlərə görə bu yaxşı əməllərin savabını itirə bilərlər. Nəticədə, bura – bərzəx aləminə – əliboş gəlirlər.
Məsumların bu savablara ehtiyacı yoxdur, buna görə də həmin xeyir əməlləri yenidən həmin insana geri qaytarırlar. Buna görə sizə tövsiyə edirəm ki, hər işi ixlasla görün, bütün yaxşı əməllərinizin savabını Məsumlara,Allah yanında məqam sahibi olan insanlara hədiyyə edin.”
Bu söz məni çox təsirləndirdi.

---

İmam Kazım (ə) buyurur: "Hər kim Quranı xətm edib savabını İmamına hədiyyə etsə, Qiyamət günü Onunla birlikdə olacaq".
Kafi kitabı, cild 2, səhifə 617

Allahın Peyğəmbəri (s): «Bir iş görəndə onu yalnız Allah üçün gör. Çünki O, bəndələrin yalnız xalis əməllərini qəbul edir».
(Biharul-ənvar, c.77, səh.103, hədis 1)
İmam Sadiq (ə): «Xalis əməl odur ki, onu etdiyinə görə Allahdan başqa bir kəsin səni tərifləməsini istəməyəsən».
(əl-Kafi, c.2, səh.16, hədis 4)

# Var-dövlət

Masadakı gəncə dedim: “Niyə Allah bəzən dindar olmayan insanlara bu qədər mal-dövlət verir? Bu, iman əhlini doğru yol barədə şübhəyə salır.”
O da cavab verdi:
“Allah Onun yolundan uzaq düşən, dünyaya qərq olub Allahın göstərişlərinə dəyər verməyənləri öz halına buraxır ki, axirətdə onların hesabını ağır çəksin.
Bəzən bu insanlar Allahdan dünya malı istəyəndə, tez bir zamanda onlara verilir ki, bir daha Allahdan bir şey istəmədilər. Sizin ifadənizlə desək, “tez başlarından edirlər ki, səsini eşitməsinlər!”
Belə insanlar elə bilirlər ki, Allah dərgahına yaxın adamlardır, çünki nə istəyirlərsə, tez yerinə yetirilir. Amma əslində bu belə deyil. Allah onları öz halına buraxılıb. Yaxşı iş görmək istəyirlər, amma müvəffəq olmurlar. Yaxşı bir iş görsələr də, ya fəsada səbəb olur, ya da həmin işi özləri puç edirlər.
Bu söhbət yadımda qalmışdı. Növbəti il bir ailə toplantısında, imansız, amma varlı birini gördüm. Düz həmin sözlərin canlı nümunəsi idi. Nə namaz qılır, nə ibadət edirdi, amma deyirdi:
“Allahdan nə istəsəm, dərhal verir!”
Ona dedim: “Hansı ölkələrdə olmusan?”
Cavab verdi: “Dünyanın əksər ölkələrində olmuşam,” və bir-bir ölkələrin adlarını sadaladı.
Soruşdum: “Bəs neçə dəfə Kərbəlaya getmisən? Neçə dəfə Məşhəddə olmusan?”
Kinayəli bir gülüşlə dedi: “Kərbəlada hələlik təhlükəsizlik yoxdur. Amma istəsəm, bir qatarlıq bileti alaram, hamını Məşhədə apararam.”
Yenə eyni sualı verdim: “Neçə dəfə Məşhədə getmisən?”

Dedi: "Bir dəfə iqtisadi layihə üçün getmişdim, amma tez qayıtdım."
Soruşdum: "Bəs İmam Rzanın (ə) hərəmini ziyarət etdinmi?"
Dedi: "Fürsət olmadı. Amma istəsəm, gedərəm."
Sonra ailə toplantısında ağsaqqallardan birini çağırdı və dedi:
"Hacı, bu il Məhərrəmin on gecəsinin yemək xərclərini mənim hesabıma yaz."
Bunu dedi və oradan çıxıb getdi.
Amma Məhərrəm ayına bir-iki gecə qalmış,ondan məclisin xərcini almağa getdilər, məlum oldu ki, ölkə xaricindədir!
O adam ancaq Aşura bitdikdən sonra geri qayıtdı. Həmişəki kimi, yenə sadə insanlar Məhərrəm ayının xərclərini qarşıladılar.
Bilirəm ki, həmin şəxsə hələ də Məşhəd ziyarəti nəsib olmayıb!

Peyğəmbər(s.a.s) buyurur:
«Allah-taala buyurur: Əgər mömin bəndəmin xətrinə dəyməsəydi, kafirin başına ləl-cəvahiratla bəzənmiş şal sarıyardım.»
Peyğəmbər (s.a.s) buyurur: «Əgər Allahın yanında dünyanın ağcaqanad qanadı qədər dəyəri olsaydı, heç vaxt kafirə və fəsad törədənə bir qurtum su belə içirtməzdi.»

# Şərik

Bizim bir imanlı,mömin bir  həmyerlimiz var idi. Bir müddət əvvəl dünyasını dəyişmişdi. İndi isə onu yaxşı vəziyyətdə görmədim! Əzab içində deyildi, amma bərzəx cənnətinə daxil olmağa icazəsi yox idi!
Məni görəndə yalvararaq xahiş etdi ki, onun üçün bir iş görüm. Heç danışmağa ehtiyac yox idi, mən bir baxışla hər şeyi anlayırdım.
Dedim: Əgər bacarsam, edərəm.
O da bir çox başqaları kimi, "haqqun-nas"a görə giriftar olmuşdu.
Bir az sağalandan sonra, onun kiçik qardaşının yanına getdim ki, bəlkə onun üçün bir iş görə bilim.
Qardaşına dedim: Allah qardaşınıza rəhmət eləsin, amma bir sualım var: Qardaşınızdan razısınızmı?
Mənə təəccüblə baxaraq dedi:
Bu nə sözdür? Allah ona rəhmət eləsin, qardaşım çox mömin  biri idi. Həmişə onun üçün xeyir işlər  görürəm.
Dedim: Amma qardaşınız mənə xəbər göndərib ki, "haqqun-nas" məsələsində çətinlikdəyəm və qardaşım məni halal etməlidir.
O, qaşlarını çatıb mənə baxdı və dedi:" Sən səhv edirsən".
Dedim: Amma qardaşınız bunu mənə izah edib. Əgər icazə versəniz, sizə danışaram. Amma gərək əvvəlcədən söz verəsiniz ki, onu halal edəcəksiniz.
Dodaqlarında acı bir təbəssüm yarandı və dedi:
"Danış, əgər həqiqətən düz desən, qardaşımı halal edəcəyəm".
Dedim: Siz iyirmi il əvvəl qardaşınızla bir  işdə  şərik olmuşdunuz. Sən yüz min tümən, qardaşın da yüz min tümən gətirmişdi və qardaşın bu pulu qazanc əldə etmək üçün bir nəfərə vermişdi.
O adam dedi: Bəli, yaxşı xatırlayıram. Bir il ortaq idik. Həmin şəxs mənfəəti hər ay qardaşımın hesabına köçürürdü və o da hər ay mənə iki min tümən verirdi.

Dedim: Problem də elə buradadır. Sənin haqqın ayda üç min tümən idi, amma qardaşın min tümənini özünə götürürdü.
O yenə də təəccüblə mənə baxdı və dedi: Bunu haradan bilirsən?
Dedim: "O özü mənə bu məsələni dedi. Amma söz verdin ki, onu halal edəcəksən."
Mən bunu dedim və oradan ayrıldım.
Bir-iki ay sonra o şəxs yanıma gəldi və dedi: O gün sən gələndən sonra həmin  işi görən şəxslə əlaqə saxladım. Sənin dediyin doğru idi. Amma qardaşım mənim üçün ata kimi idi, onu halal etdim.
Elə həmin gecə qardaşımı yuxuda gördüm. Çox sevincli idi və davamlı olaraq mənə təşəkkür edirdi. Sonra dedi: "Get anamızın evinin həyətinə, filan yeri qaz. Orada bir sandıq qoymuşam, içində bir neçə qızıl sikkə var. Onları çətin günlər üçün saxlamışdım. İndi onlar sənindir."
Mən getdim və o sikkələri tapdım. İndi sənin yanına gəlmişəm və istəyirəm o sikkələrdən ikisini-üçünü xeyriyyə işinə verim ki, savabı qardaşıma çatsın.
Mən də Allaha şükür etdim. Ona bir-iki ehtiyac içində olan ailəni tanıtdırdım ,Allaha şükrlər olsun onlara yaxşı pul verildi.

# Haqqun-nas

İşə girəndən sonra özüm üçün xüms ili təyin etmişdim,yəni hər il əlavə gəlirlərimi müəyyən edir və onların beşdə birini xüms olaraq ödəyirdim.
Məhəlləmizdə ruhanilər var idi,amma bir gün dostlarımdan biri dedi: "Məhəlləmizdə bir qoca ruhani var, gəl, xümsünü ona ver və xüms qəbzini də al."
Xüms məsələsinə çox ehtiyatlı davranırdım. Heç nəyi gözdən qaçırmırdım.Mən 1990-cı illərin ortalarından Rəhbərə təqlid etməyə başladım. Xatırlayıram, o il mənim xümsüm iyirmi min tümən idi.
Elə həmin illərin birində xümsümü ödəyəndə, o qoca ruhaniyə xüsusilə vurğuladım ki, mənə Ali Rəhbərin dəftərxanasından qəbz gətirsin.
Bir həftə sonra xüms qəbzini gətirəndə gördüm ki, bu, başqa alimin dəftərxanasının qəbzidir!
Dedim: "Bu nə qəbzdir? Səhv gətirmisiniz?Mən sizə dedim ki,Rəhbərə təqlid edirəm"
O da dedi: "Heç bir fərqi yoxdur."
Mən isə əsəbiləşib ona dedim: "Mütləq mənə Ali Rəhbərin dəftərxanasından qəbz gətirməlisiniz."
Mən ona bir daha vurğuladım ki, mən Rəhbərin təqlidçisiyəm və istəyirəm ki, xümsüm mütləq onun dəftərxanasına çatsın.
O isə növbəti həftə mənə möhürsüz bir qəbz gətirdi və mən bunun düz olub olmadığını başa düşmədim. Elə həmin ildən sonra xümsümü birbaşa AliRəhbərin dəftərxanası tərəfindən elan olunan hesaba köçürməyə başladım.
Bir-iki il sonra xəbər aldım ki, bu qoca ruhani dünyasını dəyişib.
Sonralar başa düşdüm ki, bu adam bir neçə nəfərin xümsünü də alıb qəbzi səhv təhvil verirmiş .

Əməllərimin hesab-kitabı aparılarkən qəflətən bu qoca ruhanini gördüm. Həqiqətən çox çətin bir vəziyyətdə idi.
O, çox sayda insanın haqqını tapdaladığı üçün çətinlik içində idi. Onun ən böyük problemi xümsa görə idi.Hətta bəzi adi insanlar belə ondan daha yaxşı vəziyyətdə idilər!
Qoca mənə yaxınlaşıb məndən halallıq istədi. Amma vəziyyəti o qədər pis idi ki, mənim razılığım belə bir şeyi dəyişdirmirdi. Mən də halallıq vermədim.
Bu vaxt masanın arxasındakı gənc mənə dedi:
“Bu gördüyün şəxslər – istər sən onlardan, istər onlar səndən halallıq istəsin – artıq dünyadan köçüblər. Amma hələ yaşayanlarla olan hesabınız qalır, onlar da bərzəxə gəlib çatandan sonra haqq-hesabınız aparılacaq.”
Sonra yenə mənimlə “haqqunnas” (insanların haqqı) barədə danışdı və dedi:
“Vay o kəslərin halına ki, illərlə ibadət ediblər, amma insanların haqqına riayət etməyiblər.
Ancaq bunu da bil: "Əgər kimsə sənin haqqını tapdalasa və sən onu dünyada ikən bağışlasan, sənin əməl dəftərinə onun on qat savabı yazılar.
Yox əgər bu məsələ bərzəxə qalsa, onda yalnız o qədəri qeyd olunar.”

Həzrət Peyğəmbər (s) buyurur: "Əməllər hesaba çəkilən zaman insanlardan bir qrupu haqqını zay edən başqa insanlardan haqqını istəyərlər. Allah ona xitab edər:
"Başını qaldır və behiştə nəzər sal". Tələb edən baxar və deyər:
"Ey Pərvərdigar! Şəhərlər görürəm ki, gümüşlə qaldırılmış və qızıldan olan qəsrlər mirvari ilə bəzədilmişdir. Bu şəhərlər və qəsirlər hansı peyğəmbərə, ya şəhidə aiddir?"
Allah Təala buyurur: "O kəsindir ki, onun qiymətini ödəmişdir".
Bəndə soruşar: "Onun qiyməti neçədir?"
Allah buyurar: "Qiyməti odur ki, sən qardaşını bağışlayasan". Bu zaman bəndə deyər: "Mən qardaşımı bağışladım". Allah da hər ikisini behiştə rəvanə edər."

Amma insanların nisbətən daha az diqqət etdiyi məsələlərdən biri də "Haqqullah"dır (yəni Allahın haqqı). Deyirlər ki, bu haqq Allaha məxsusdur, İnşəAllah Allah günahlarımızdan keçər.
"Haqqünnas" (insanların haqqı) isə hamıya məlumdur.
Amma "Haqqun nəfs" – yəni insanın bədəninin haqqı barədə isə demək olar ki, insanların heç biri bu məsələyə ciddi yanaşmir!
Elə bilirlər ki, Allah bədənin haqqını da bağışlayacaq!
Lakin o çətin və qorxulu anlarda, əməl dəftərimdə bir hadisə göstərildi ki, bu da məhz "bədənin haqqı" ilə bağlı idi.
Gənclik illərində, məhəllə dostlarımızla bir gün şəhər kənarındakı bağlardan birinə əylənməyə getmişdik. Bizi ora dəvət edən adam qəlyanı hazırladı və bir qutu siqaretlə yanımıza gəldi.
Siqaretləri bir-bir yandırıb dostlara paylayırdı. Mən isə siqaret çəkən bir atanın evində böyümüşdüm, amma siqaretə nifrət edirdim.
O gün hər nə qədər xoşlamasam da, həmin adamın uzatdığı siqareti götürüb çəkməyə başladım. Özümü çox pis hiss etdim.Çox öskürdüm, elə bil nəfəs ala bilmirdim.
O gündən sonra heç vaxt siqaret və qəlyana yaxın durmadım. Amma həmin hesab-kitablarda bu səhnəni mənə göstərdilər və dedilər:
"Sən bilirdin ki, siqaret zərərlidir. Niyə bircə dəfə də olsa çəkdin? Sən bədənin haqqını pozdun və cavab verməlisən."
Bu məni çətinliyə saldı!
Orada elə insanları gördüm ki, mömin və dindar şəxslər idilər. Dinin bir çox hökmlərinə əməl etmişdilər, amma "haqqun nəfs"ə (bədənin haqqına) diqqət etməmişdilər.
Onlar siqaret və qəlyan səbəbilə xəstəliyə və erkən ölümə tutulmuşdular və bədənlərinə zərər vurduqları üçün əzab çəkirdilər.

# Ailə

Ailə qurmağın əhəmiyyəti o qədər çoxdur ki, bəlkə də bunu xatırlatmağa ehtiyac belə yoxdur. Doğrudur, ailə məsuliyyətini qəbul etmək çətin və ağır bir işdir. Lakin rəvayətlərimizdə evlənmək Peyğəmbərin (s) sünnəsi kimi təqdim olunmuşdur və insanın dininin yarısının kamala çatması məhz evlənmək və ailə qurmaqla bağlıdır.
Elə ki, bir uşaq dünyaya gəlir, ev əhlinə bərəkət və xeyir nazil olur. Təbii ki, bu məsələni də qeyd etmək lazımdır ki, dünyanın bütün işləri, xüsusilə də ailə qurmaq kimi məsələlərdə də çətinliklər var. Çünki Allah -Təala "Bələd" surəsinin 4-cü ayəsində buyurur:
“Həqiqətən, Biz insanı daim əziyyət və məşəqqət içində yaratdıq.”
Yəni bu dünya elə bir yerdir ki, çətinliklər və problemlərlə doludur.
Amma mən bu aləmdə müşahidə etdim ki, insan hər dəfə ailəsi və həyat yoldaşı ilə bir yerdə olduqda, Allahın bərəkət və rəhməti onun üzərinə nazil olur.Digər tərəfdən isə, çoxlu xeyir və savablar insana onun övladı vasitəsilə göndərilir. Bəlkə də, insan üçün saleh övlad qədər dəyərli bir baqiyatus-salihat (əbədi savab əməl) yoxdur.
Buna görə də İmam Sadiq (ə) buyurur:
«Allahın mömin bəndəsindən mirası onun bağışlanmasını istəyən əməlisaleh övladdır.»
Mən yeniyetməlik dövrümdən öyrənmişəm ki, nə vaxt yaxşı bir iş görsəm və ya sədəqə versəm, onun savabını haqqı mənim boynumda olan bütün insanların ruhuna — Adəmdən Xatəmə qədər olanların, şiə ölülərinə, nənə -babalarımın ruhuna hədiyyə edim.
Bu aləmdə babamı bir qrup insanla birlikdə gördüm. Onlar daim mənə təşəkkür edirdilər və deyirdilər: “Sənin kimi bir övladımızın olduğu üçün fəxr edirik. Sənin bizim üçün göndərdiyin xeyir-dualar bizim bir çox müşküllərimizin həllində çox əlimizdən tutub.Biz daim sənin üçün dua edirik ki, Allah sənin tovfiqatını artırsın”

# Sileyi-rəhm

Bizim qohumlarımız arasında çoxu qohumlardan qız alır. Mən də dayım qızı ilə evləndim. Digər tərəfdən, mən qohumlar arasında çox sileyi-rəhim edən,tez-tez qohumlara baş çəkən birisi kimi tanınıram.
Bir xalam var ki, şəhid anasıdır. Elə həmin oğlu əməliyyat otağında başımın üstündə idi. Bütün qohumlar mənə deyirlər: "Sən o xalanın oğlusan," çünki tez-tez onun yanına gedir və problemlərinin həll etməyə çalışırdım.
Qohumların xeyir-duası həmişə çətinliklərimin açarı olub. Hətta mənə göstərdilər ki, bəzi hallarda ağır hadisələr – hətta ölümə səbəb ola biləcək vəziyyətlər – məhz qohumların və valideynlərimin duaları sayəsində aradan qalxıb!

Vəsailu'ş-Şiə, cild 15, səh. 96:
" Mənim bir dostum var idi, dini məsələlərə çox riayət edirdi. Maddi vəziyyəti çox yaxşı idi, amma evlənməyə razı olmadı və ömrünün sonuna qədər subay qaldı. O, çox xeyirxah bir insan idi; bir neçə məscid, məktəb və s. tikdirmişdi. Dostumuz bir qəza nəticəsində dünyasını dəyişdi. Onu yuxuda gördüm. Mənə dedi: "Məkanım yaxşıdır, amma peşmanam ki, imkanım olduğu halda ailə qurmadım! Əgər saleh bir övladım olsaydı, bu, bütün o qoyduğum vəqflərdən daha üstün olardı. Subay qalmaqla bir çox dərəcə və müvəffəqiyyətdən məhrum oldum."
İmam Sadiq (ə) buyurur: "Qohumlarla əlaqə əxlaqı gözəlləşdirər, ruzini artırar və ölümü təxirə salar."
Peyğəmbər Əkrəm (s) buyurur: "Kim canı və malı ilə qohumlarla əlaqə saxlayarsa, Allah-Təala ona yüz şəhidin savabını verər."
(Vəsailu'ş-Şiə, cild 6, səh...)

# Şəhid və Şəhadət

Bu qısa qiyamət səfərində şəhidlik və şəhadətə baxışım dəyişdi.
Bunun səbəbi isə bir neçə hadisə oldu:
Şəhərimizin müəllim və tərbiyəçilərindən biri məhəllə məscidində uşaqları məscidə və heyətə cəlb etmək üçün inanılmaz səy göstərirdi.O, ixlasla fəaliyyət göstərirdi və bizim məscidə gəlməyimizə çox təsir etmişdi.Bu Allah bəndəsi bir dəfə maşın sürərkən o qırmızı işıqda keçdi və ağır qəza baş verdi, nəticədə vəfat etdi.Mən bu Allah bəndəsini şəhidlərin arasında və onların səviyyəsində gördüm! Onunla danışa bildim. O, məsciddə və məhəllədə etdiyi gözəl əməllərinə və dini göstərişlərə əməl etdiyinə görə şəhidlik məqamına çatmışdı. Əslində, o dünyada şəhid kimi yaşamış və şəhidlik dərəcəsinə çatmışdı.
Lakin mənim ağlımda olan sual onun qəzası və qanuna əməl etməməsi, yəni ölüm səbəbi idi.
O mənə dedi: “Maşını idarə edərkən infarkt keçirdim və dünyadan köçdüm, sonra qarşı maşınla toqquşma baş verdi. Qəza səhnəsində heç də mənim əlimdə deyildi.”
Başqa bir yerdə müharibənin əvvəlində şəhid olmuş və şəhərimizin şəhidlər xiyabanında dəfn edilmiş atamın dostlarından birini gördüm. Amma o çox çətin vəziyyətdə idi və ümumiyyətlə şəhidlər dərəcəsində deyildi! Təəccübləndim. Onun şəhid kimi tabutda dəfn mərasimini yaxşı xatırlayırdım...Amma niyə belə idi?!
Özü dedi: “Mən cihada getmək üçün cəbhəyə yollanmamışdım. Alver və ticarət dalınca idim. Mal almaq üçün sərhəd bölgələrinə getmişdim, orada bombardman oldu.Mən həlak oldum. Cənazəmi döyüşçü şəhidlərlə birlikdə şəhərə gətirdilər və elə bildilər ki, mən də döyüşçü olmuşam".

Amma şəhidlərlə bağlı gördüyüm ən mühüm şey qonşularımızdan biri ilə bağlı idi.
İbtidai məktəb illərindən yaxşı yadımdadır ki, əksər gecələr məhəllə məscidində Quran dərsləri, məclislər və heyət proqramları olurdu.
Gecənin sonunda evə qayıdarkən dar və qaranlıq bir küçədən keçirdik.Elə uşaqlıqdan bir az dəcəl idim. Bəzi uşaqlarla evlərin zənginə basıb qaçırdıq!
Bir gecə məsciddən digər dostlarımdan bir az gec çıxdım. Həmin dar küçənin ortasında idim ki, dostlarımın bir evin zənginə yapışqan yapışdırdıqlarını gördüm! Zəng səsi dayanmırdı.
Birdən evin oğlu – məscidin bəsicilərindən biri – bayıra çıxdı.Zəngdən yapışqanı çıxardı və gözü mənə sataşdı.O, daha əvvəl də mənim bu cür şeylər etdiyimi eşitmişdi. Bu səbəbdən irəli gəldi, biləyimdən tutdu və dedi:
“Gərək atana deyim ki, nə işlə məşğulsan".
Nə qədər israr etdim ki, bu işi mən etməmişəm ,amma faydası olmadı. O məni evimizin qarşısına apardı və atamı çağırdı.
O gecə qonşumuzun toyu var idi. Küçə və evimizin qarşısınfa çox adam var idi.
Atam bu məsələni eşidəndə çox əsəbləşdi və hamının gözü qarşısında məni möhkəmcə döydü.
Bu bəsici gənc burada yanlış bir mühakimə etmişdi və bir neçə il sonra, müharibənin son günlərində şəhid olmuşdu.
Bu hadisə və mənim haqsız yerə döyülməyim əməl dəftərində yazılmışdı.
Stol arxasında oturan gəncə dedim: “Mən bu şəhiddən haqqımı necə ala bilərəm? O, mənim barəmdə tələsik qərar verdi.”
O dedi: “O şəhidin bura gəlməsinə ehtiyac yoxdur . Mənim ixtiyarım var ki, səni razı salanadək sənin günahlarından silim.”
Sonra birdən əməl dəftərimin səhifələrinin çevrildiyini gördüm! Hər səhifədəki günahlar silinir, yaxşı əməllər isə qalırdı.

Çox sevindim. Həyəcanlandım. Təxminən bir-iki il ərzində etdiyim əməllər bu şəkildə silindi.
Stol arxasındakı gənc soruşdu:
"Razı qaldın?"
Dedim: "Bəli, əla oldu."
Amma sonralar peşman oldum. Niyə imkan vermədim ki, bütün pis əməllərim silinsin?!
Amma yenə də pis olmadı. Elə həmin anda o şəhid gəldi, mənimlə salamlaşıb məni qucaqladı. Onu görmək məni çox sevindirdi.
Dedi: "Halbuki gəlməyim vacib deyildi, amma düşündüm ki, gəlib şəxsən səndən halallıq alım. Gerçəkdən də sən də o hadisədə əvvəlki davranışlarına görə tam da günahsız deyildin."
Bibim oğlu Müdafiə Dövründə şəhid olmuşdu. Bir anlıq onun məqamını görmək istədim. Dərhal çox gözəl bir bağa daxil oldum. Oradakı şeyləri təsvir etməkdəki çətinlik bu dünyada bənzərinin olmamasıdır. Yəni, oranın gözəlliklərini necə ifadə edəcəyimizi bilmirik!. Təsəvvür edin ki, kiminsə İranın şimalını, dənizi və meşələrin yaşıllığını görməyib, nə şəklini, nə də videosunu görməyib – nə qədər desək də, ağlında düzgün bir təsəvvür yarana bilməz.
Bizim vəziyyətimiz də dünyadakı insanlarla belədir. Amma elə danışmalıyam ki, bu təsəvvürlərə yaxın olsun.
Mən sonu görünməyən böyük bir bağa daxil oldum. Çox yumşaq və gözəl otların üzərindən keçirdim. Müxtəlif güllərin ətirli qoxusu insanı məst edirdi. Oradakı ağaclarda hər cür meyvə var idi .Çayın o biri tərəfində böyük və gözəl, ağ rəngli bir saray görünürdü. Onu necə təsvir edim, bilmirəm. Dünyadakı heç bir saraya bənzəmirdi. Uşaqlıq cizgi filmlərində gördüyümüz buz saraylarına oxşayırdı. Sarayın bütün divarları nur saçırdı. Çayın üzərindən keçmək üçün bir körpü axtarırdım, amma birdən anladım ki, əgər istəsəm, suyun üstü ilə keçə bilərəm.Suyun üzərindən keçdim və bibim oğlunun möhtəşəm sarayına çatanda heyran qaldım.Bibim oğlu ilə görüşdüm.O dedi:
"Biz burada Əhli-Beytə qonşuyuq. İmamlarla görüşə bilirik və bu, bərzəx cənnətinin ən böyük nemətlərindən biridir. Hətta şəhid dostlarımızla, məhəlləmizin şəhidləri ilə, yaxınlarımız və dostlarımızla da görüşə bilirik."

# Zühur

Çox çətin idi. Hesab və kitab çox dəqiq aparılırdı. Hər saniyəsi hesablanılırdı.
İş yerində olmalı olduğum vaxtları çox diqqətlə araşdırırdılar ki, görək beytulmala ziyan vurmuşam, ya yox!?
Şükür Allaha, bu mərhələlər yaxşı keçdi. Məsciddə və heyyətdə olduğum zamanları hesabladılar və dedilər:
"İki ilini bu cür keçirmisən, bu illəri ömründən hesablamırıq."
Yəni bu illərə görə sorğu-sual olmayacaq və bu iki ildən rahat keçə bilərsən.
Orada bəzi həmkarlarımı və tanışlarımı görürdüm – onların misali bədənlərini orada görürdüm, halbuki hələ dünyada idilər! Onların ruhi və əxlaqi problemlərini görə bilirdim.
Təəccüblü idi ki, bəzi həmkarlarımı şəhid olaraq bərzəxə getdiklərini görürdüm, onlar əməl dəftəri açılmadan və hesab olunmadan bərzəx cənnətinə gedirdilər! Çoxunun üzünü yadda saxladım.
Masada oturan bir gənc dedi: "Bir çox həmkarların və dostların üçün şəhidlik yazılıb, amma şərti var – əgər öz səhv əməlləri ilə bu şəhidlik ləyaqətini itirməsələr."
Masada oturan gəncə həmkarlarımı göstərib dedim:
"Mən nə edim ki, mənə də şəhidlik nəsib olsun?"
O da işarə edərək dedi: "İmam Zaman (ə.f) qeybətdə olduğu dövrdə şiələrin rəhbərliyi Vəliyyi-fəqihin öhdəsindədir. İslam bayrağı onun əlindədir."
Elə həmin anda Rəhbərin bir görüntüsünü gördüm. Təəccüblü idi ki, tanıdığım çoxlu sayda insan Onun ətrafında idi və ona zərər verməyə çalışırdılar, amma bacarmırdılar! Həmin anlarda çox hadisələr gördüm və onları anladım – hadisələr ki, hələ dünyada baş verməmişdi!
Çoxlarını gördüm ki, şiddətlə çətinlik içində idilər. Onların boynunda milyonlarla insanın haqqı var idi . Hər kəsdən kömək istəyirdilər, amma heç kim onlara diqqət yetirmirdi. O məsul şəxslər ki, bir zamanlar özlərini böyük sayırdılar,rahat bir həyat keçirirdilər – indi dərd-bəla içində boğulurdular və hamıya yalvarırdılar.

Sonra masanın arxasında oturan gəncdən İmam Zaman (ə.f) zühuru haqqında soruşdum.
O dedi: "İnsanlar Allahdan istəməlidirlər ki, İmam Zaman(ə.c) zühuru tez baş versin ki, dünya və axirət çətinlikləri aradan qalxsın. Amma insanların çoxu, bütün bunlara baxmayaraq, İmam Zaman(ə.c) istəmirlər. Onlar sadəcə öz dünyəvi çətinliklərinin həll olunması üçün İmam Zamana (ə.c) müraciət edirlər."
Mən zühurun əlamətləri barədə soruşdum. İsrailin və Amerikanın müsəlman ölkələrinə qarşı fitnə-fəsad planları qurduqlarını, bəzi müsəlman ölkələrin onlarla əməkdaşlıq etdiklərini dedim və...
Masanın arxasındakı gənc gülümsəyərək dedi:
"Narahat olma. Bunlar suyun üzərindəki köpük kimidir – yox olacaq, məhv olacaq. Siz zəif düşməməlisiniz. İmanınızı itirməməlisiniz.Məgər Ali-İmran surəsinin 139 cu ayəsini oxumamısınız:
"Heç vaxt (düşmən qarşısında) süstləşməyin və (düçar olduğunuz bəlalara görə) kədərlənməyin ki, əgər (həqiqi) mömin olsanız siz üstünsünüz".

İmam Zaman (ə.c) buyurur:
"Allahdan qorxun, bizim əmrimizə tabe olun və işləri bizim öhdəmizə qoyun. Sizi çeşmə başına aparıb sirab etdiyimiz kimi, geri qayıtmağınız da bizim öhdəmizədir və sizə məlum olmayan şeyin arxasınca getməyin."
Biharul-ənvar", c. 53, səh. 179.
İmam Zaman (ə.c) buyurur:
"Əgər şiələrimiz (Allah onları Özünə itaətə müvəffəq etsin) çiyinlərində olan əhd-peymana əməl etsəydilər, onların bizimlə görüş səadəti təxirə düşməzdi."
"Biharul-ənvar", c. 53, səh. 177.

# Ya Zəhra

Orada şahid olduğum başqa bir məqam isə bu idi ki, çoxlu sayda insan dünya həyatını yalnız Allahın göstərişlərinə əməl etmədiklərinə görə puç etmişdilər!
Bu gənc dedi: Allah-Taala tərəfindən məsumlar vasitəsilə sizə göndərilən göstərişlər ilk növbədə dünya həyatınızı abad edir, sonra isə axirətinizi qurur.
Məsələn, mənə dedilər:" Əgər o naməhrəmlə mesajlaşmanı davam etdirsəydin, bu, əməl dəftərinə böyük bir günah kimi yazılacaqdı və dünya həyatına da təsir edəcəkdi.
Bu anda hiss etdim ki, arxamda  məndən bir qədər aralıda çox nurlu və şəxsiyyətli bir qadın dayanıb! Başqalarının ona göstərdiyi hörmətdən başa düşdüm ki, o xanım bizim anamız Həzrət Fatimeyi Zəhra (s.ə) idi.

Əməl dəftərimin son səhifələri nəzərdən keçiriləndə və bir səhv və ya günah görünəndə, xanım üzünü çevirirdi. Amma yaxşı bir əmələ çatanda, o, razılıq əlaməti olaraq təbəssüm edirdi.
Bütün diqqətim anam Həzrət Zəhraya (s.ə) yönəlmişdi. Mən dünyada iki aləmin xanımına xüsusi məhəbbətim var idi. Həmişə Fatimiyyə günlərində məclislər təşkil edirdik və çalışırdım ki, daim onu xatırlayım.
Onu da qeyd edim ki, bizim ana tərəfimizdən olan nəsil  seyidlərdəndir və biz də Həzrət Zəhranın (s.ə) nəslindən hesab olunuruq. İndi o Hz.Zəhra(s.ə) yanımda idi və əməllərimə şahidlik edirdi.
Təkcə o Xanım deyil, bütün məsumları da orada gördüm!
Bir şiə üçün çox ağırdır ki, əməlləri yoxlanılarkən məsum imamlar onun yanında dayansınlar və onun günahlarına şahid olsunlar. O əməllərim ki, məsumları narahat edirdi.İnsan xəcalətindən bilmirdi nə etsin .

Çox kədərli idim. Çoxlu sayda yaxşı əməllərim puç olmuşdu. Əməl dəftərimdə demək olar ki, bir şey qalmamışdı. Digər tərəfdən, yüzlərlə insanlar var idi ki,hələ bərzəx həyatına qədəm qoymamışdılar onl haqqlarını tapdaladığıma görə onların haqqını qaytarmalı idim.
Bir anda dünyaya və evimizə tərəf baxdım. Hamiləliyinin dördüncü ayını keçirən həyat yoldaşım səccadənin üzərində oturmuşdu, ağlayaraq Allahı Həzrət Zəhranın (s.ə) haqqına and verərək yalvarırdı ki, mən sağ qalım.
Sonra baxışım başqa bir yerə yönəldi. Öz məhəlləmizdə bir evin içində iki yetim uşaq Allahdan yalvararaq istəyirdilər ki, mən geri dönüm. Onlar Allaha deyirdilər: “İlahi, biz yenidən yetim qalmaq istəmirik.”
Bildirim ki, Allah mənə bu iki yetim uşağın xərclərini ödəmək nemətini vermişdi və çalışırdım onlara ata kimi dəstək olum. Onlar mənim əməliyyatımdan xəbərdar idilər və ağlaya-ağlaya Allahdan istəyirdilər ki, mən sağ qalım.
Masanın arxasındakı gəncə dedim: Əllərim boşdur. Heç bir yol yoxdur , mən geri dönüm?Olmaz ki, anamız Həzrət Zəhradan (s.ə) istəyəsən, mənim üçün şəfaət etsin? Bəlkə icazə verələr,geri dönüm insanların haqqını ödəyim, ya da keçmişdəki səhvlərimi düzəldim.
Cavabı mənfi oldu. Amma yenə təkid etdim. Dedim, anamız Həzrət Zəhradan (s.ə) istəyin ki, mənə şəfaət etsin.
Bir neçə dəqiqə sonra masanın arxasındakı gənc mənə baxaraq dedi:
“Bu yetim uşaqların göz yaşları, həyat yoldaşının duaları, dünyaya gəlməkdə olan qızının duası və valideynlərinin duası sayəsində, Həzrət Zəhra (s.ə) səni şəfaət etdi ki, geri dönəsən.”
Elə bu söz deyilən kimi, birdən-birə ayağımın altı boşaldı! Qədim qara-ağ televizorlar sönərkən necə görüntü yavaş-yavaş itib yox olurdusa, eynilə o cür bir hal baş verdi və mən bir anda azad buraxıldım.

# Qayıdış

Bir anın içində gördüm ki, xəstəxana çarpayısında uzanmışam və tibbi heyət mənə elektrik şoku verir. Şok cihazını bir neçə dəfə bədənimə qoşdular və öz dilləri ilə desək: "Xəstə dirildi."

Ruh bədənə qayıtmışdı, qəribə bir hal içində idim. Bir tərəfdən sevinirdim ki, yenidən möhlət əldə etmişəm, digər tərəfdən isə kədərlənirdim ki, o nurani aləmdən bu fani dünyaya geri qayıtmışam.

Həkimlər bir müddət sonra işlərini bitirdilər. Əslində, şiş çıxarılmışdı və əməliyyatın son mərhələsində mən üç dəqiqəlik ürək dayanması keçirdim. Sonra isə şok tətbiq etməklə məni diriltdilər.

Mən bütün bu anlarda onların etdiklərini müşahidə edirdim. İş bitdikdən sonra məni yaxınlıqdakı reanimasiya otağına apardılar və bir neçə saat sonra narkozun təsiri keçdi, ağrılar və əzablar bədənimə geri döndü.

Halım bir az düzəldi və sağ gözümü aça bildim, amma o gözəl anlardan bir an belə ayrılmaq istəmirdim.

Bu saatlarda mən o mənəvi səfərdən yaddaşımda qalan bütün xatirələri təkrar-təkrar xatırlayırdım. Nə qədər çətin idi! Nə ağır vəziyyətlərdən keçdim. Mən bərzəx cənnətini bütün nemətləri ilə gördüm. Əzab çəkən insanları gördüm. Cənnətin bir neçə addımlığına qədər getdim.

Anam Həzrət Zəhranı (s.ə)  yaxından gördüm. Onun dünya və axirətdə necə uca bir məqama sahib olduğunu müşahidə etdim. Dünya həyatına dözmək mənim üçün həqiqətən çətin idi.

Bir neçə dəqiqə sonra iki tibb bacısı salona daxil oldu ki, məni palataya köçürsünlər. Onlar məni çarpayıda lift vasitəsilə başqa otağa aparmaq istəyirdilər. Onlar uzaqdan yaxınlaşan kimi, onlardan birinin simasını görmək məni dəhşətə saldı. Onu mənə tərəf gələn bir canavar kimi görürdüm!
Məni palataya köçürdülər. Qardaşım və bəzi dostlarım başımın üstündə idilər. Bir-iki tanış da məni görməyə gəlmişdi.
Birdən onların batini simasını görüb qorxudan titrədim. Bədənim üşəndi. Yoldaşlarımdan birinə dedim: "Filankəsi və filankəsi geri göndərin. Heç kimə dözə bilmirəm."
Hiss edirdim ki, çoxlarının batini mənim üçün aşkar olub. Əməllərin və davranışların iç üzü...
Mənə gətirilən yeməyə baxmaq istəmirdim. Qorxurdum ki, onun batinini görüm. Amma aclıqdan məcbur olub yeməli idim.
Günorta üstü çalışdım ki, üzümü divara çevirim. Heç kimi görmək istəmirdim. Amma bir anda rəngim qaçdı! Divar və tavan Allahı təsbih edirdi.
Yanımda olan iki-üç nəfər həkimin tövsiyəsi ilə israrla deyirdilər ki, gözlərimi açım. Amma onlar bilmirdilər ki, mən ətrafdakıların simasını görməkdən qorxuram və bu səbəbdən gözlərimi açmaq istəmirəm.
Məni əməliyyat edən cərrah imanlı və hörmətli bir insan idi. Çox təqvalı bir həkim idi.Elə ki, cümə səhəri oldu, əvvəlcə Nüdba duasını oxudu, sonra mənim yanıma gəldi.Əməliyyat başa çatdıqdan sonra bəzi insanları batini şəkildə gördüyümə və bəzi səsləri eşitdiyimə görə, həkimin üzünə baxmaqdan qorxdum.O, başımın üstündə dayanmışdı və deyirdi: "Gözlərini aç." Düşünürdü ki, hələ də gözlərimdə problem var. Amma mən qorxu içində idim.Onun israrları ilə gözümü açdım. Şükür Allaha ki, həkimin zahiri və batini insani idi. Barmaqlarını göstərib soruşdu: "Bu neçə dənədir?" və başqa suallar verdi.Cavab verdim və dedim: "Gözlərim sağlamdır. Əllərinizə sağlıq, amma icazə verin hələlik gözlərimi bağlayım."
Həkim rahatlıqla dedi: "Necə istəsən, elə də et."

# Tənhalıq

Həmin gün xəstəxanada Allahdan istədim ki, bu halı məndən götürsün. Mən bu şəkildə yaşamağa davam edə bilməzdim.Bu vəziyyətdə, hətta bəzi yaxınlarımla belə danışa və əlaqə qura bilmirdim!
Şükür Allaha ki, bu hal aradan qalxdı və həyatım əvvəlki halına qayıtdı. Amma tək qalmaq istəyirdim. Tək qalıb, əməllərin hesaba çəkildiyi o mənzərəni bir daha xatırlamaq istəyirdim.
Tənhalığı sevirdim. O  anlarda şahidi olduğum bütün hadisələri bir-bir düşünürdüm. Nə qədər gözəl anlar idi.Orada zaman anlayışı yox idi. Orada sözə ehtiyac yox idi. Sadəcə bir baxışla istədiyin şeyi ifadə edə bilirdin.Orada əvvəldən axıra qədər hər şeyi görmək olurdu. Mən hətta bəzi hadisələri də gördüm ki, hələ baş verməmişdi.Həmin anda elə məsələləri və həqiqətləri dərk etdim ki, onları danışmaq olmur.
Mən o mənəvi aləmdəki son anlarımda, şəhid olmuş bəzi dost və iş yoldaşlarımı gördüm. Bilmək istəyirdim ki, bu hadisə baş vermişdi, ya yox?!
Elə həmin xəstəxanadan, qohumlarımın birinin vasitəsilə zəng etdim və məsələni araşdırdım, onların səhhəti ilə maraqlandım. Bir neçəsinin adını çəkdim.
Dedilər: “Yox, bütün dostların sağ-salamatdırlar.”
Təəccübləndim. Bəs gördüyüm bu mənzərənin mənası nə idi? Mən onları şəhidlik halında bərzəxə daxil olan şəkildə görmüşdüm.
Əməliyyatdan bir neçə gün sonra, vəziyyətim bir az düzəldi və evə buraxıldım.Amma beynim çox məşğul idi. Niyə mən bəzi dostlarımı – indi idarədə işləyən şəxsləri – şəhid libasında gördüm?

# Hərəm müdafiəçisi

Cərrahiyyə əməliyyatından dörd ay sonra, 2015-ci ilin sentyabrında idarədə elan olundu ki:
"Hərəm müdafiəçilərinin sıralarına qatılmaq istəyənlər qeydiyyatdan keçə bilərlər."
İş yoldaşlarım arasında bir canlanma yarandı. Gözlədiyim kimi, onların hamısı qeydiyyatdan keçdi. Mən də çox israr və çalışmadan sonra bu şərəfə nail oldum və təlim kursunu tamamladıqdan sonra onlarla birlikdə Suriyaya yollandım.
Suriyanın şimalında yerləşən ən mühüm şəhər – Hələb və onun ətrafındakı vacib bölgələr azad edilməli idi. Qüvvələrimiz həmin ərazidə yerləşdirildi və əməliyyat başladı. Bir neçə mərhələli əməliyyat keçirildi və terrorçuların Türkiyə ilə əlaqəsi kəsildi. Hələb şəhərinin tam mühasirəsi təmin olundu.
Daim Allahdan istəyirdim ki, Hərəm müdafiəçiləri ilə birlikdə şəhidlər karvanına qoşulum. Artıq dünyada qalmağa heç bir marağım yox idi — ancaq Allah rizası üçün bir iş görmək dən başqa.
Şəhidlərin o aləmdə hansı məqama sahib olduqlarını görmüşdüm. Buna görə də arzum o idi ki, onlarla birgə olum.
İşlərimi qaydaya saldım.Vəsiyyətnaməmi yazdım və boynumda olan haqq sahiblərinin borclarını ödəməyə çalışdım. Getməyə tam hazır idim.
Xatırlayıram ki, ezamdan əvvəl çox çətinliklərim var idi. Gedişimlə razılaşmırdılar , amma Allahın köməyi ilə bütün problemlər həll olundu.
Qeyd edim ki, əməliyyat otağında başıma gələn hadisələrdən sonra, bütün davranış və əxlaqım dəyişmişdi. Artıq əməllərimə çox diqqət edirdim ki, Allah eləməsin, kiminləsə haqq-hesabım qalmasın, heç kimin qəlbini qırmayım. Artıq əvvəlki zarafatlar, kimisə ələ salmaq və s. bitmişdi.

Əməliyyatdan bir-iki gecə əvvəl, uzun illər bir yerdə işlədiyim yaxın dostlarım bir araya gəldik. Onlardan biri dedi:
“Eşitmişəm ki, sən əməliyyat otağında ölümə bənzər bir hal yaşamısan...”
Nəticədə çox israr etdilər ki, onlara hadisəni danışım. Amma mən qəbul etmədim. Bir-iki nəfərə çox qısa şəkildə danışmışdım, amma onlar inanmamışdılar. Buna görə də qərara almışdım ki, artıq heç kəsə bir söz deməyim.
Nəticədə çox israr etdilər ki, onlara hadisəni danışım. Amma mən qəbul etmədim. Bir-iki nəfərə çox qısa şəkildə danışmışdım, amma onlar inanmamışdılar. Buna görə də qərara almışdım ki, artıq heç kəsə bir söz deməyim.
Cavad Muhəmmədi, Sədi Yəhya Bərati, Səccad Muradi, Kazimi, Murtəza Zar'e və Şahsənayi və digərləri ilə birlikdə idik. Onlar məni komandanlığın bir otağına apardılar və israr etdilər ki, gördüklərimi danışım.
Mən də hadisədən bir qədərini danışdım, dostlarım xüsusilə haqqun-nas və şəhidlik mövzusunda çox təsirləndilər.
Bir neçə gün sonra, bir əməliyyatda iştirak edirdim. Əməliyyat zamanı yaralandım və yerə yıxıldım.
Yaralanmam səthi idi.Mən düşmənin birbaşa atəş xəttinə düşmüşdüm.
Hərəkət edə bilmirdim. Heç kim də mənə yaxınlaşa bilmirdi. Şəhadət kəlməsini dedim. Bu anlarda gözləyirdim ki, təkfirçi snayper tərəfindən atılan bir güllə ilə şəhid olum.Bu böhranlı vəziyyətdə Əbdülmehdi Kazımi və Cavad Məhəmmədi özlərini təhlükəyə ataraq irəli gəldilər. Onlar çox sürətlə məni səngərə apardılar. Bu işlərinə görə çox narahat oldum. Dedim: "Niyə belə etdiniz? Ola bilərdi hamımızı vursunlar."
Cavad Məhəmmədi dedi: "Sən sağ qalmalısan və o dünyada nə gördüyünü deməlisən."
Bir neçə gün sonra, bu şəxslər yenidən xüsusi bir görüşdə məndən istədilər ki, bərzəxdən onlara danışım. Tək-tək onların üzünə baxdım və dedim: "Sizdən bir neçəniz sabah şəhid olacaqsınız."

O anlarda qəribə bir sükut hökm sürmüşdü. Onlar baxışları ilə yalvarırdılar ki, susmayım.O dostların o görüşdəki halları təsvir olunası deyildi. Mən gördüyüm hər şeyi danışdım. Bir tərəfdən də özüm üçün nigaran idim – bəlkə bu dostların arasında mən olmayacağam? Amma yox, inşallah ki, mən də olaram.

Cavad israrla məndən suallar verirdi və mən də cavab verirdim.

Axırda soruşdu: "O tərəfdə ən çox nə fayda verir?"

Dedim: "Namaza əhəmiyyət verməkdən sonra, səmimi və ixlasla, Allah və Onun bəndələri üçün nə bacarırsınızsa,edin."

Bir neçə gün sonra əməliyyata hazırlaşdıq. Hərbi rasionumuzu aldıq və avadanlıqları yığışdırdıq. Özümü şəhidliyə ciddi şəkildə hazırlamışdım. RPG götürdüm və şəhid olacaqlarına əmin olduğum dostlarımın yanında dayandım. Dedim, əgər bunların yanında olsam, yaxşıdır. Yəqin ki, hamımız birlikdə şəhid olarıq.

Gecə yarısı idi, hələ qüvvələr hərəkət etməmişdi ki, Cavad Məhəmmədi yanıma gəldi.O, işlərin gedişini izləyirdi. Tez mənim yanıma gəldi və dedi: "İndi əməliyyata gedirik, bölgənin həssaslığı çox yüksəkdir."

O istəyirdi ki, məni qüvvələrlə birgə getmək fikrindən daşındırsın.

Mən də ona dedim: "Bu uşaqlardan bir neçəsi tezliklə şəhid olacaq. Xüsusilə bir yerdə olduğumuz dostlarımız. Mən də onlarla olmaq istəyirəm ki, bəlkə onların bərəkəti ilə biz də bu nemətə nail olaq."

Hərəkət əmri verildi. Mən saatlar öncə hazır idim. Sütunun önündə dayanmışdım və ilk şəhid olmaq istəyirdim.

Hələ bir neçə addım getməmişdik ki, Cavad Məhəmmədi motosikletlə gəldi və məni çağırdı.Çox ciddi şəkildə dedi: "Min motosikletə, başqa tərəfdə cəbhə xəttinin kəşfiyyatçısı olmalısan."

Sözünə tabe olmalı idim. Mən də sevinərək motosikletə mindim. On dəqiqəlik bir yol getdik, bir təpəyə çatdıq. Mənə dedi:"Tez ol,düş."

O anlarda qəribə bir sükut hökm sürmüşdü. Onlar baxışları ilə yalvarırdılar ki, susmayım.O dostların o görüşdəki halları təsvir olunası deyildi. Mən gördüyüm hər şeyi danışdım. Bir tərəfdən də özüm üçün nigaran idim – bəlkə bu dostların arasında mən olmayacağam? Amma yox, inşallah ki, mən də olaram.
Cavad israrla məndən suallar verirdi və mən də cavab verirdim.
Axırda soruşdu: "O tərəfdə ən çox nə fayda verir?"
Dedim: "Namaza əhəmiyyət verməkdən sonra, səmimi və ixlasla, Allah və Onun bəndələri üçün nə bacarırsınızsa,edin."
Bir neçə gün sonra əməliyyata hazırlaşdıq. Hərbi rasionumuzu aldıq və avadanlıqları yığışdırdıq. Özümü şəhidliyə ciddi şəkildə hazırlamışdım. RPG götürdüm və şəhid olacaqlarına əmin olduğum dostlarımın yanında dayandım. Dedim, əgər bunların yanında olsam, yaxşıdır. Yəqin ki, hamımız birlikdə şəhid olarıq.
Gecə yarısı idi, hələ qüvvələr hərəkət etməmişdi ki, Cavad Məhəmmədi yanıma gəldi.O, işlərin gedişini izləyirdi. Tez mənim yanıma gəldi və dedi: "İndi əməliyyata gedirik, bölgənin həssaslığı çox yüksəkdir."
O istəyirdi ki, məni qüvvələrlə birgə getmək fikrindən daşındırsın.
Mən də ona dedim: "Bu uşaqlardan bir neçəsi tezliklə şəhid olacaq. Xüsusilə bir yerdə olduğumuz dostlarımız. Mən də onlarla olmaq istəyirəm ki, bəlkə onların bərəkəti ilə biz də bu nemətə nail olaq."
Hərəkət əmri verildi. Mən saatlar öncə hazır idim. Sütunun önündə dayanmışdım və ilk şəhid olmaq istəyirdim.
Hələ bir neçə addım getməmişdik ki, Cavad Məhəmmədi motosikletlə gəldi və məni çağırdı.Çox ciddi şəkildə dedi: "Min motosikletə, başqa tərəfdə cəbhə xəttinin kəşfiyyatçısı olmalısan."
Sözünə tabe olmalı idim. Mən də sevinərək motosikletə mindim. On dəqiqəlik bir yol getdik, bir təpəyə çatdıq. Mənə dedi:"Tez ol,düş."

Sonra Cavad qışqırdı: “Seyyid Yəhya, gəl bura!”
Seyyid Yəhya tez gəlib motosikletə mindi.Mən Cavada dedim:
“Bura haradır? Cəbhə xətti hardadır? Qüvvələr hanı?”
Cavad dedi: “Bu RPG-ni götür, təpəyə çıx. Uşaqlar sənə təlimat verəcəklər.”
Təpəyə qalxdım və Cavad motosikletlə geri döndü! Bu bölgə çox sakit idi.
Təəccübləndim! Sığınacaqda olan bir neçəsinə soruşdum: “Nə edək? Düşmənin xətti haradadır?”
Onlardan biri dedi: “Otur, burası müdafiə xəttidir. Sadəcə düşmənin hərəkətlərinə nəzarət etməliyik.”
Elə onda başa düşdüm ki, Cavad Məhəmmədi nə iş görmüşdü!
Ertəsi gün əməliyyat bitəndə Cavadı gördüm və əsəbi şəkildə dedim: “Niyə məni cəbhənin arxasına apardın?!”
O isə gülümsəyərək dedi: “Sən hələlik şəhid olmamalısan. Sən insanlara o tərəfdə (axirətdə) nə baş verdiyini deməlisən. İnsanlar axirəti unudublar. Ona görə səni cəbhədən uzaq bir yerə apardım.”
Amma bizim dostlar həmin gecə düşmən xəttinə hücum etdilər.
Səccad Muradi və Seyyid Yəhya Bəraəti cəbhənin önündə idilər və ilk şəhidlər oldular.
Bir müddət sonra Mürtəza Zare, sonra Şahsanayi və Əbdülmehdi Kazımi... Qısa müddətdə, birlikdə olduğumuz bütün dostlarımız şəhid oldular – tam da əvvəldən gördüyüm kimi.
Cavad Məhəmmədi də sonradan onlara qoşuldu. İsfahanlı uşaqları İrana gətirdilər.
Mən isə əlim boş, Hərəmi Müdafiə edənlərin arasından İrana döndüm – içimdə hələ də yanıb-tökülən bir həsrətlə.

Hərəmi müdafiə edən dostlarımın şəhadətindən sonra halım çox pis idi.Mən şəhadətə çox yaxınlaşmışdım, amma özüm bilirdim ki, niyə şəhadəti əldən verdim!
Mənə demişdilər ki, hər haram baxış, şəhadətə aşiq olanların şəhadətini ən azı altı ay gecikdirir.
Suriyaya getdiyimiz gün bizim uçuşumuz Antalyaya olan uçuşla eyni vaxtda idi!Bəzi cavan qızlar çox açıq-saçıq geyimdə qarşımda dayandılar və istəmədən gözüm onlara sataşdı.
Qalxdım və yerimi dəyişdim. Nə qədər çalışsam da fikrimi yayındıra bilmirdim. Amma digər dostlarım elə yerlərdə oturmuşdular ki, yanlarında heç bir naməhrəm yox idi.
Bu qızlar yenidən qarşıma gəldilər. Bilmirəm, bəlkə elə bilmişdilər ki, mən də Antalyaya gedirəm.Nə olursa olsun, sanki imanım sınağa çəkildi. Sanki şeytan və onun tərəfdarları gəlmişdilər ki, mənə sübut etsinlər: “Hələ hazır deyilsən.”
Baxmayaraq ki, onların gözqamaşdıran davranışlarına qarşı heç bir söz demədim, heç bir reaksiya göstərmədim, amma təəssüf ki, bu imtahandan keçə bilmədim.
Suriyada birlikdə olduğumuz dostlar arasında bir neçəsini şəhidlər sırasında görmüşdüm. Bilirdim ki, onlar da şəhid olacaqlar.
Onlardan biri Əli Xadim idi. Əli sadə və sevimli bir Sepah (İran İslam İnqilab Keşikçiləri Korpusu) üzvü idi. Sakit və ixlaslı idi.
Hava limanında elə bir yerdə oturdu ki, qarşısında heç kim olmasın və naməhrəmləri görməsin.
Dostlarımızın şəhadəti zamanı Əli də yaralandı, amma bizimlə birlikdə İrana ayıtdı.
Öz-özümə düşünürdüm ki, Əli tezliklə şəhid olacaq, amma necə və harada?!

# Vətən müdafiəçisi

Şəhidlərin arasında gördüyüm dostlarımızdan biri İsmayıl Kərimi idi. O, İranda idi və hətta Hərəmi müdafiə edənlər arasında da deyildi. Amma mən onu hesabsız-kitabssız Cənnətə gedən şəhidlərin arasında gördüm!
Mən və İsmayıl çox yaxın dost idik.
Bir gün məni ziyarətə gəldi. Bir neçə saat söhbət etdik. Vida edərək dedi ki, sərhəd bölgələrinə ezam olunmaq üçün tapşırıq alıb.
Dostlarımız Sistan və Bəlucistana yola düşdülər. Həmin bölgənin təhlükəsizlik məsələləri elə idi ki, Sepah dostlarımız ora ezam olunurdular. Ertəsi gün Əli Xadimin harada olduğunu soruşdum. Dedilər ki, Sistandadır. Birdən düşündüm: Görəsən şəhidlik qapısı oradan onun üçün açılacaq?!
Dərhal komandanlığa məktub yazdım və israrla şərq sərhədlərində iştirak etmək istəyimi bildirdim. Amma icazə verilmədi.
Bir müddət keçdi. Dostlarla əlaqədə saxlayırdım, amma onlara qoşula bilmədim.
2019-ci ilin fevral ayının 14-də  bir xəbər yayıldı. Xəbər qısa idi, amma mənə və bütün dostlara böyük bir şok yaşatdı.
Vəhabilərdən olan bir intiharçı, özünü Sepahın avtobusuna çırpıb və tapşırığını başa vurmuş olan onlarla döyüşçünü şəhid etdi.
Dostlarımın aqibətini soruşdum. Ertəsi gün şəhidlərin siyahısı göndərildi. Əli Xadim və İsmayıl Kərimi hər ikisi şəhid olmuşdular.

# Şəhadətə nail olmaq

Orada bir şəhidlə danışanda, o biri aləmdən maraqlı təsvirlər edirdi. Deyirdi ki, sizin bir çox problemləriniz Allaha təvəkkül etməklə və şəhidlərdən kömək istəməklə həll olunur. Şəhadət məqamı Allah dərgahında o qədər uca və möhtərəmdir ki, bərzəxə daxil olmayınca bunu dərk edə bilməzsiniz. Bu qısa ömürdə ixlasla Allaha ibadət edin, Onun bəndələrinə xidmət edin və dua edin ki, ölümünüz də şəhidliklə olsun.

Sonra dedi: "Burada behiştlilər pərvanə kimi Əhli-Beytin ətrafında fırlanırlar və onların nurani varlıqlarından bəhrələnirlər."

Mən şəhidlərə verilən behişt nemətləri – qəsrlər, hurilər və s. haqqında soruşdum.

Dedi: "Bütün nemətlər gözəldir, amma Əhli-Beytin hüzurunda olmaq ləzzətini bircə dəfə dərk etsən, bir an belə onların məclisini tərk etməyə razı olmazsan. Mən görmüşəm ki, bəzi şəhidlər bu günə qədər behişt hurilərinə tərəf belə getməyiblər, o qədər ki, Məhəmməd və Ali-Məhəmmədin nurani camalına aşiq olublar."

Amma orada başa düşdüyüm və çox dəyərli olan mühüm məqam bu idi ki,şəhadətə nail olmaq hər kəsə qismət olmur.

İxlaslı bir insan, dünya bağlılıqlarının hamısından qopa bilsə, şəhadətə layiq olar.

Bir gecə Suriyada dostlarımla birlikdə idik və kimlərin şəhid olacağını deyirdim. Hətta dostlarımdan birinə xüsusilə dedim:
“Sən sabah digər dostlarla birlikdə şəhid olacaqsan.”
Ertəsi gün əməliyyat zamanı bizim qüvvələrin tankı hədəfə alındı. Seyyid Yəhya və Səccad həmin an şəhid oldular. Elə həmin tankın yanında da o dostumuz dayanmışdı – mən onun şəhadətini görmüşdüm.
Amma o dostumuz sağ qaldı və İŞİD-in güclü atəş yağışı altında geri çəkilə bildi!
Çox təəccübləndim. “Yəni mən səhv görmüşdüm?!” – deyə düşündüm.
Bu hadisədən 2-3 il keçdi. Bir gün iş yerində idim, həmin dostum mənə baş çəkməyə gəldi. Bir az hal-əhval tutduqdan sonra danışmağa başladı və dedi:
“Çox peşmanam... çox!”
Təəccüblə soruşdum:
“Nədən peşmansan?”
Dedi:
“Yadındadır, Suriyada mənə şəhadət vəd etmişdin? O gün, tank vurulanda mən kiçik bir çuxura düşdüm. Biz düzənlikdə idik və düşmənin birbaşa hədəfində idik.
Əmin idim ki, bu an şəhid olacağam.
İnan ki, mən dostlarımın göyə qalxdığını görürdüm!
Amma həmin anda balaca övladlarım gözümün önünə gəldi.
Gördüm ki, onlardan ayrıla bilmirəm!
Həzrət Zeynəbə (s.ə) təvəssül etdim:
"Xanım, mən sizin hərəminizi müdafiə etməyə layiq deyiləm. Mən uşaqlarımın yanına qayıtmaq istəyirəm. Xahiş edirəm...’
Hələ sözlərim tamamlanmamışdı ki, görünməz bir qüvvənin mənə yardım etdiyini hiss etdim!
Bir əl başımın altına girdi və məni o çuxurdan çıxardı. Halbuki orada düşmənin atəşi kəsilmirdi.”

Mən geri çəkilirdim və güllələrin qulağımın yanından keçdiyini eşidirdim,amma bir güllə və ya qəlpə belə mənə dəymədi!
Sanki o qeybi qüvvə məni qorudu və sağ-salamat geri qayıtdım.
Amma indi çox peşmanam.
Bilmirəm, niyə o anda o sözləri dedim!Şəhadətə nail olmaq hər zaman insanın qarşısına çıxmır...
O bunları deyirdi və göz yaşları tökürdü...
Eyni bu təsvirləri başqa bir hərəmi müdafiə edən qazi də etmişdi.
O deyirdi:
“Tirə tuş gəldim və yerə yıxıldım, ruhum bədənimdən ayrıldı və göyə qalxdım.Bir tərəfdən ürəyim deyirdi: ‘Get’, amma öz-özümə dedim:
‘Həyat yoldaşım çox yalnızdır. Yazıqdır, cavan yaşında dul qalmasın. Mən onu çox sevirəm...’
Elə bu tərəddüdlə cavab vermədim və bir anda gördüm ki, yenidən aşağı düşürəm və sürətlə bədənimə qayıdıram.
Elə həmin anda şəhid dostlarımın cəsədləri, mənimlə birlikdə, maşından xəstəxanaya aparılırdı ki, birdən mənim sağ olduğumu gördülər...”
Buna bənzər bir hadisəni Sepah avtobusundakı partlayışdan sağ çıxan qazi də danışırdı:
“Partlayış baş verən kimi mən də onlarla birlikdə göyə qalxdım!
Orada gördüm ki, dostlarım bizim aramızdan ayrıldılar və mələklərin qarşılaması ilə, hesabsız kitab aparılmadan birbaşa behiştə daxil olurlar.
Növbə mənə çatdı. Soruşdular:
‘İstəyirsən onlarla birlikdə gedəsən?’
Dedim: ‘Bəli’, amma birdən arvadım və övladlarım yadıma düşdü.
Onlara olan sevgi bir anda qəlbimi bürüdü.Elə həmin anda məni şəhidlərin sırasından çıxardılar.
Və dərhal bədənimə geri qaytarıldım.
İndi nə qədər peşmanam!Niyə o anda qafild oldum?! Axı Allah şəhidlərin yaxınlarının yardımçısı deyilmi?Mən çox böyük səhv etdim.
Amma tam əmin oldum ki, şəhadət elə bir uca məqamdır ki, hər kəsə nəsib olmur.

# Həsrət

Bu məsələni də xatırladım ki, dostlarımın şəhadətindən sonra mən şərq sərhədlərinə yollandım.
Bir müddət sərhəd postlarında xidmət etdim.Amma şəhadətdən bir xəbər çıxmadı!Orada gördüklərim mənə "Üç dəqiqəlik hadisələr" adlı xatirələrimi xatırladırdı.
Bir gün iki Sepah əsgəri bizim qərargaha gəldi.Onları görən kimi halım dəyişdi!Çünki hər ikisini mən əvvəllər görmüşdüm .Onlar hesabsız və başları kəsilmiş halda şəhidlərin arasında behiştə gedirdilər!Əmin olmaq üçün onlara dedim:
"Hər ikinizin adı Məhəmməddir?"
Onlar təsdiq etdilər və sözümün davamını gözlədilər.Amma mən mövzunu dəyişdim və heç nə demədim.
Daha sonra şərq bölgəsindən geri döndüm və bir idarədə işləməyə başladım.İçimdə isə inanılmaz bir həsrət vardı.
Bir gün idarənin namaz otağında iki gəncin yanaşı oturduğunu gördüm.
Yanaşdım və salam verdim.Onların siması mənə çox tanış gəlirdi.Birincisinə dedim:
"Bilmirəm sizi harada görmüşəm, amma çox tanış gəlirsiniz. Soyadınızı öyrənə bilərəm?"
Birinci şəxs özünü təqdim etdi. Onun adını eşidən kimi, rəngim qaçdı!
Əməliyyat otağındakı xatirələr və hadisələr gözümün önünə gəldi.
Dərhal yanında oturan dostuna dedim:
"Sizin adınız da Hüseyn ağadır, elə deyilmi?"O da təsdiqlədi və mənim onları haradan tanıdığımı söyləməyimi gözlədi.
Amma daxilim alt-üst olmuşdu, vidalaşıb oranı tərk etdim.
Çox yaxşı xatırlayırdım ki, bu iki Sepah gəncini mən bir yerdə görmüşdüm bərzəxə daxil olmuş, əməlləri sorğu-sual olunmadan birbaşa behiştə aparılmışdılar.Hər ikisi şəhid olmuşdular.

Yenidən öz yaddaşıma nəzər saldım.Bir neçə digər əməkdaş da mənə tanış gəlirdi.Beş nəfəri daha gördüm – hazırda bir-birindən ayrı olub müxtəlif şöbələrdə işləyirlər,amma mən onların şəhadətlərini də əvvəlcədən görmüşdüm.Bu beş nəfər birlikdə şəhid olacaqlar.Bir neçə nəfəri də idarədən kənarda gördüm ki, onların da...
Hərçənd ki, o üç dəqiqəlik səfərim, orada əməllərimin hesab edilməsi çox çətin idi .O anlar yaddaşımdan silinmir, amma illər keçsə də, həmin hadisə ilə bağlı bir çox şeylər fərqli zamanlarda və şəraitlərdə yadıma düşür.
Bir neçə gün əvvəl iş yerində oturmuşdum.“Qiyamətdə üç dəqiqə” kitabının ilk çapı çıxmışdı.Tehrandan bir məsul şəxs idarəmizə yoxlama üçün gəlmişdi.O otağa daxil olan kimi salam verdi, masanın arxasına keçdi və görüşdük.Məni adımla çağırıb dedi:
“Necəsən, qardaş?”
Mən hələ onu xatırlamırdım, cavab verdim:
“Əlhəmdulillah.”
Dedi: "Görünür ki, məni tanımadın? On il əvvəl, filan idarədə qısa bir müddət sizinlə iş yoldaşı olmuşam. 'Üç dəqiqəlik Qiyamət' kitabını oxuyanda təxmin etdim ki, bu hadisə sizin başınıza gəlib, elə deyilmi?"
Dedim: "Bəli", və bir az söhbət etdik. O dedi: "Qohumlarımdan biri bu kitabı oxuyandan sonra çox dəyişib. Həqqun-nas və beytulmalın qaytarılması üçün xeyli pul verdi."
Adi söhbətlərdən sonra o getdi və mən fikrə getdim ki, görəsən onu harada görmüşəm!
Birdən yadıma düşdü! O da o şəxslərdən idi ki, yanımdan keçib sorğu-sualsız cənnətə daxil olmuşdu. O da şəhid olacaq.
Bu dostları hər gün görmək mənim həsrətimi artırırdı.
Dostlar hamısı getdilər,əfsus geridə qalan mənəm....

# Yeni təcrübə

"Qiyamətdə üç dəqiqə kitabı" Allahın köməyi və insanların marağı ilə çap olundu və gözəl qarşılandı. İnsanların bu kitaba münasibəti çox yaxşı oldu və çoxları xəbər verirdi ki, bu kitab onların üzərində böyük təsir buraxıb.

Dəfələrlə toplantılarda və ya bəzi dostlarla qarşılaşdığımda, bu kitab mənə hədiyyə verilirdi! Onlar kitabın rəvayətçisinin kim olduğunu bilmirdilər və mən, bu kitabın insanların mənəvi həyatında təsirli olduğunu görüb çox sevinirdim.

Bir səhər, hər zaman olduğu kimi, işə gedirdim.

Yol kənarında bir qadın çox açıq-saçıq geyimdə dayanmışdı və taksi gözləyirdi. Onu uzaqdan gördüm, əl edirdi, yol sakit idi və hava da elə də yaxşı deyildi, buna görə dayandım və qadın maşına mindi.

Heç bir giriş olmadan salam verdi və dedi: "Mən xəstəxanaya getmək istəyirəm.Mən xəstəxanada həkiməm. Bu səhər maşınım işə düşmədi. Sizin yolunuz haradır?"

Dedim: "Mənim iş yerim həmin xəstəxananın yaxınlığındadır. Sizi apararam."

O gün arxa oturacaqda bu kitabdan bir neçəsi var idi.

Qadın arxa oturacaqdan bir kitab götürdü və oxumağa başladı. Sonra dedi: "Bağışlayın, icazə almadan götürdüm, bu kitabı oxuya bilərəm?"

Dedim: "Kitabı götürün. Sizin üçün hədiyyədir. Amma bir şərtlə — oxuyacaqsınız."

Təşəkkür etdi və bir neçə dəqiqə sonra xəstəxananın qapısı önündə dayandım.Çox təşəkkür etdi və maşından düşdü.

Bir neçə ay keçdi və mən bu hadisəni unutdum.

Ta ki bir gün axşamüstü, iş saatı bitəndə, adət etdiyim kimi maşınıma mindim və idarənin əsas qapısından çıxdım.Elə əsas yola çıxmaq istəyəndə gördüm ki, bir çadorlu qadın səkidən küçəyə daxil oldu və əl elədi!

Dayandım. Mən onu tanımadım, amma görünür, o məni yaxşı tanıyırdı! Şüşəni aşağı endirdim. Yaxınlaşdı, salam verdi və dedi: "Məni tanıdınız?"
Gənc bir qadın idi. Başımı aşağı saldım və dedim: "Bağışlayın, xeyr."
Dedi: "Mən o qadın həkiməm ki, bir neçə ay əvvəl bir səhər mənə kömək etdiniz və məni xəstəxanaya apardınız. Sizinlə bir neçə dəqiqəlik işim var."
Dedim: "Bəli, necəsiniz?"
Ədəb qaydalarına görə maşına mindirmək düzgün olmazdı, həm də bəlkə də yaxşı olmazdı ki, bir yad qadın, o da idarənin qarşısında, maşına minsin.
Maşını park etdim və düşdüm. Səki kənarında, başım aşağı, onun sözlərinə qulaq asdım.
Dedi: "Əvvəlcə soruşmalıyam, siz kitabın rəvayətçisisiniz? Həmin kitab ki, o gün mənə hədiyyə etdiniz? Doğrudur?"
Cavab vermək istəmirdim, amma o çox israr etdi.
Dedim: "Bəli, buyurun, xidmətinizdəyəm."
Dedi: "Şükür Allaha! Sizi çox axtardım .Kitabın məzmunundan və o gün gəldiyiniz yoldan təxmin etdim ki, burada işləyirsiniz.
İş yoldaşlarınızdan da soraqlaşdım. İndi də iki saata yaxındır ki, küçədə dayanmışam və sizi gözləyirəm."
Dedim: "Məndən nə istəyirsiniz?"
Dedi: "Bu kitab həyatımın gedişatını alt-üst etdi. Axirət mövzusunda məni çox dərin düşüncələrə saldı. Bir gün bu gəncliyim bitəcək, mən də qocalacağam və gedəcəyəm. O zaman Allahın qarşısında nə cavab verəcəyəm?!
Düzdür, dini məsələlərə əvvəl əməl etmirdim, amma inanclı bir ailədə böyümüşəm.
Kitabı oxuduqdan bir həftə sonra təklikdə çox düşündüm. Ciddi qərar verdim ki, tam səmimi tövbə edim.
Günahlarımı dilə gətirə bilmərəm, amma doğrudan da qərar verdim ki, keçmiş əməllərimi tamamilə tərk edim.

Elə həmin gün – tövbə etməyə qərar verdiyim gün – dəhşətli bir qəza baş verdi və mən ölümü öz gözlərimlə gördüm!Tam anlamıyla ruhumun bədənimdən ayrıldığını hiss etdim, amma sizin kimi nə mehriban ölüm mələyi gördüm, nə də behişti və gözəllikləri!
İki mələk məni tutub əzaba doğru aparırdı, heç kim mənə mərhəmət göstərmirdi. Mən od- alovu gördüm. Hətta qollarıma od saçan qandallar taxılmışdı.
Amma birdən qışqırdım: "Axı mən bu gün tövbə etdim! Mən doğrudan da niyyət etdim ki, keçmiş əməllərimi təkrarlamayım!"
Yanımdakı iki mələkdən biri dedi: "Bəli, qəbul edirik. Sən doğrudan da tövbə etdin və Allah tövbəni qəbul edəndir. Sənin bütün pis əməllərin silindi.Bəs insanların haqqı nə olacaq?"
Dedim: "Mən bütün pisliklərə baxmayaraq həyatda çox diqqətli idim ki, heç kimin haqqına girməyim.
Hətta iş yerində daha çox qalırdım ki, problem olmasın. Bütün xəstələr məndən razıdır və..."
O mələk dedi: "Bəli, düz deyirsən. Amma min yüz nəfər kişi var ki, onların haqqını pozmusan!"
Mənim təəccübləndiyimi görəndə davam etdi:
"Allah sənə gözəl boy-buxun və gözəl bir sima bəxş etmişdi. Amma sən bu həyatda nə etdin?!
Dar, uyğun olmayan geyimlə, makiyajla, boyanmış saçlarla və düzgün olmayan hicabla evdən çıxırdın. Bu qədər kişi sənin görünüşünü görərək müxtəlif problemlərə düşdülər.
Onların bir çoxunun həyat yoldaşları sənin qədər gözəl deyildi və sən ər-arvad arasında narazılıqlara səbəb oldun.
Bəzi gənc kişilər – ya sənin həmkarların, ya da xəstələrin – sənin gözəlliyini görüb günaha düşdülər və..."

Onların bir çoxunun həyat yoldaşları sənin qədər gözəl deyildi və sən ər-arvad arasında narazılıqlara səbəb oldun.
Bəzi gənc kişilər – ya sənin həmkarların, ya da xəstələrin – sənin gözəlliyini görüb günaha düşdülər və...”
Dedim: “Axı onlar gözlərini qoruyardılar, baxmazdılar.”
Cavab verdi: “Əgər sən paltarını düz geyinib sərhədlərə və hicaba riayət etsəydin və onlar yenə də baxsaydılar, bu zaman sənin üzərində bir günah olmazdı.
Çünki Allah Quranda həm qadınlara, həm də kişilərə əmr edib ki, gözlərini qorusunlar.Amma sən Allahın hicabla bağlı əmrinə riayət etmədiyin üçün, onların günahında da şərik oldun.Bu problemlərə səbəb sən oldun və bu, insanların rahat həyat haqqını əlindən almaq deməkdir.Sən onların həyat rahatlığını əlindən aldın və bu, haqqın pozulmasıdır .Ona görə də bu min yüz nəfərin haqqı ucbatından sən çətinlik və əzab içində olacaqsan — ta ki onların hər biri bərzəxə gəlsin və sən onların razılığını alasan.”Qadın davam etdi: “Özümü heç cür müdafiə edə bilmirdim.
Nə dedilərsə, qəbul etdim.Sonra məni əzab yerinə apardılar. Cəhənnəm atəşi və əzabları necə təsvir olunubsa, onların hamısını öz gözlərimlə gördüm.
Elə o an ki, atəşə atılmaq üzrəydim, birdən sizin kitabınızı və Həzrət Zəhraya (ə) təvəssülü xatırladım.Həmin yerdəcə fəryad edib dedim: “Allahım, anam Həzrət Zəhranın (ə) hörmətinə mənə bir fürsət ver ki, əməllərimi düzəldim. Allahım...”
Bu cümləni dediyim kimi, sanki bədənimə geri qayıtdım!
Həyat əlamətləri bərpa olundu və məni xəstəxanaya çatdırdılar. İndi, bir neçə ay keçib və tam şəkildə sağalmışam.Amma o anlardan bir iz bədənimdə hələ də qalıb.O iki mələk mənim biləklərimə atəşdən bir qandal taxmışdı. Ayıldığım zaman biləklərim yanırdı. Bu problemim hələ də keçməyib!Biləklərimdə atəş halqaları kimi yanıqlar var və onların izləri hələ də durur!Düşünürəm ki, Allah istəyirdi bu yaşadıqlarımı heç vaxt unutmayım.

Mən tövbəmə sadiq qaldım. Keçmiş günahları tərk etdim.Namaza başladım, hətta qəzaya qalmış namazlarımı da qılıram.
Amma məni bu qədər çarəsiz şəkildə sizi axtarmağa vadar edən şey odur ki, siz mənə yardım edin.
Mən bu min yüz nəfəri necə tapa bilərəm? Onlardan necə halallıq ala bilərəm?"
Bu qadın son sözlərini boğazı düyünlənərək və ağlayaraq təkrar etdi.
Mən isə heç bir çıxış yolu tapa bilmədim. Yalnız bir ruhanini ona tanıtmaqdan başqa bir yol ağlıma gəlmədi.

---

*Qeyd:"Qiyamətdə Üç Dəqiqə" adlanan kitabın nəşrindən bir il belə keçməmişdi.Bu müddət ərzində inanılmaz bir maraq göstərildi və kitabın ümumi tirajı bir milyondan çox nüsxəyə çatdı.
Rəvayətçinin yadından çıxmış bəzi xatirələr əlavə olunaraq ikici dəfə nəşr olundu.Eyni zamanda kitabın yeni versiyasının elektron nüsxəsi virtual aləmdə pulsuz paylaşıldı.

**Dostlarım və yoldaşlarım – o günləri və gecələri bir yerdə keçirdik. Amma onlar getdilər və mən...**







**Şəhid Yəhya Bəraəti**

**Şəhid ƏbdülMehdi Kazemi**





**Şəhid Mürtəza Zare**

**Şəhid Səccad Moradi**



**Şəhid Cavad Muhəmmədi**




**Şəhid Əli Şahsənayi**



**Şəhid Əli Xadim**



**Şəhid  İsmayıl Kərmi**

**Hərəm müdafiəçisi şəhid Cavad Məhəmmədini bu kitabın banisi adlandırmaq olar. O, əməliyyat gecəsi kitabın rəvayətçisini arxaya göndərdi ki, onun xatirələri gələcək nəsillər üçün qorunub saxlanılsın.**
**ŞəhidCavadMuhəmmədi vəsiyyətnaməsində belə buyurur:**
**"Əgər Allahın lütfü ilə şəhid olsam, mütləq hicabsızların və hicabsızlığı təbliğ edənlərin yaxasından yapışacam".**



İsfahanlı hərəm müdafiəçilərindən biri və bu kitabda adı keçən şəhidlərlə dost olan Seyyidin ailə həyatı çətinliklərlə üzləşmişdi. Onların ən böyük problemi bu idi ki, uşaqları doğulmazdan əvvəl dünyasını dəyişirdi! Üçüncü uşaqları da eyni şəkildə oldu. Həkim ultrasəs müayinəsinin nəticəsinə baxdıqdan sonra dedi: “Uşaq ananın bətnində ölüb, sabah səhər tezdən gəlin, uşağı çıxarmaq lazımdır. Əgər daha çox gözləsəniz, ana da həyatını itirə bilər.” Seyyid çox narahat olmuşdu. Həyat yoldaşını evə çatdırandan sonra çölə çıxdı və Allahla tək qaldı. Dedi: “Həyat yoldaşım artıq dözə bilmir. Arzu edirdim ki, uşağım sağ qalsın və İmam Zamanın əsgəri olsun.” Sonra şəhid Cavad Məhəmmədinin məzarına getdi. Dedi: “Ey Cavad, sən də bizim dostumuz sayılırsan? Görmürsən nə çətinliklərim var? Bir iş gör.”

Səhəri gün xəstəxanaya getmək istəyirdilər. Getməzdən əvvəl həyat yoldaşının anası gəlib dedi:
“Bir az gözləyin. İndi yuxuda şəhid Cavad Məhəmmədini gördüm. Mənə bir vərəq verdi və dedi:
" Seyyidə de ki, övladın Allahın lütfü ilə sağ-salamatdır.”
Onlar inanmadılar. Xəstəxanaya getməmişdən öncə yenidən ultrasəs müayinəsi etdilər və eyni qadın həkiminə göstərdilər. Həkim əvvəlki və indiki nəticələri bir neçə dəfə yanaşı qoyub baxdı! Sonra dedi: “Bunlardan biri mütləq səhvdir.” Amma bilmirdi ki, Allah-Təala bir şəhidin duası ilə insanın taleyini – hətta ana bətnində belə – dəyişə bilər.
İndi artıq o “kiçik Seyyid” dünyaya gəlib.
Seyyid deyirdi: Cavad Məhəmmədi şəhid olanda bir müddət cənazəsi tapılmadı. Mən başqa bir iş üçün Ayətullah Nasirinin xidmətinə getmişdim. Ona şəhid Cavad Məhəmmədinin şəklini göstərib dedim: “Hacı ağa, dua edin bu şəhidin cənazəsi geri qayıtsın.”
Ayətullah Nasiri təbəssüm etdi və buyurdu: “O, şəhidlik anında xüsusi olaraq Həzrət Vəliyyi-Əsr tərəfindən inayətə nail oldu. Tezliklə cənazəsi də geri qayıdacaq.”
Bu söhbətdən qısa müddət sonra, şəhid Cavad Məhəmmədinin cənazəsi vətənə qaytarıldı.

---

Yazıçı deyir: Atam illərlə Tehrandakı heyyətin xidmətçilərindən idi. Ömrünü İmam Hüseynə(ə) xidmətdə sərf etdi. 2019 cu ilin əvvəlində, Ramazan ayında dünyasını dəyişdi. Bir neçə gün ondan xəbərimiz olmadı.Bilmirdik bərzəx aləmində vəziyyəti necədir. Qohumlardan biri yuxuda yaraşıqlı bir gənc gördü və o dedi: “Atanız üçün narahat olmayın. O, Ə’ləyin məqamında və İmam Hüseynin hüzurundadır. Orada da bu dünyadakı kimi ağalarının qonaqlarına xidmət edir.”
Sonra özünü tanıtdı və dedi: “Mən Cavad Məhəmmədiyəm. Hərəm müdafiəçisi şəhidlərdənəm. Şəkilimi kitabda görmüsünüz.”
O zaman onu tanıdıq.